

## Tərəqqi yolunun başlanğıcı - 14 iyul 1969-cu il!

5

# Səs

№ 122 (6563) 14 iyul 2022-ci il. Qiyməti 60 qəpik

## Şəhid ailələrinə və qazilərə qayğı dövlət siyasətinin prioritetidir

2



# İrəvan belə davam edərsə, son söz yenə də rəsmi Bakınındır!

*44 günlük Vətən müharibəsinin Azərbaycanın Zəfəri ilə başa çatmasının ardınca Cənubi Qafqazda yeni geosiyasi proseslərin başlanğıcı, regionda yeni çağırışlar meydana gəldi. Belə ki, məhz Zəfər reallığı nəticəsində Cənubi Qafqazda cərəyan edən bütün proseslər məhz Azərbaycanın birmənalı liderliyi və diktəsi altında həyata keçirilir. Beləliklə, 44 günlük müharibədən sonra imzalanan və Ermənistanın kapitulyasiyasını rəsmiləşdirən üçtərəfli bəyanat növbəti mərhələdə Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanmasına doğru yönəldi. Lakin müharibənin başa çatmasından 20 aya yaxın zaman keçməsinə baxmayaraq rəsmi İrəvan bu prosesi ləngidir.*




4

## "Milli-mənəvi dəyərlərimiz qloballaşmanın mənfi təsirlərinə qarşı etibarlı sipərdir" mövzusunda tədbir keçirilib



9

## Apreldən maya, maydan iyula, iyuldan sentyabra - Zəfər yoluna...




*Həmişə ermənilərdən bəhs edəndə bədnam, nankor qonşumuz kimi sözlərdən istifadə edirik. Lakin məntiqlə düşünəndə onları nə tarix, nə zaman, nə də məkan bizə qonşu edib.*

8

## "ASAN xidmət": 10 il vətəndaş xidmətində

10




*Sosial xarakter daşıyan "ASAN xidmət"in bəyənilmə əmsalı təxminən 100 faizə yaxındır. Bu, vətəndaş məmnunluğunun ifadəsidir. Azərbaycan Prezidenti İlham Əliyevin 2012-ci il 13 iyul tarixli Fərmanına əsasən yaradılan "ASAN xidmət"in coğrafi əhatəsi genişlənir, həm də funksiyaları artır.*

## Niyə kitab oxumaq lazımdır?



12



## ABŞ sanksiyalarına kim və necə düşə bilər?

Amerika Birləşmiş Ştatları Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistana sanksiya tətbiq edilən malların Rusiyaya çatdırılması ilə bağlı xəbərdarlıq edib.

6



## Meyvə və giləmeyvələri qışa saxlamağın yolu

16

*Yay dadlı meyvələrlə zəngin fəsildir. Meyvələrin xarab olmağını gözləməkdənsə, onlardan mürəbbə bişirmək və ya qış fəsli üçün tədarük...*



## "Qarabağ" UEFA reytinqində xalımızı artırdı

16

*Futbol üzrə UEFA Çempionlar Liqasında 1-ci təsnifat mərhələsinin ötən gecə keçirilən cavab oyunlarından sonra UEFA-nın reytinq siyahısında dəyişikliklər olub.*

# Şəhid ailələrinə və qazilərə qayğı dövlət siyasətinin prioritetidir





***Bəli, bu gün hər bir dövlət və cəmiyyət üçün hərbi əməliyyatlarda iştirak edən şəxslərin müharibələrdən sonra mövcud durumu, şəhid və qazi ailələrinin sosial-psixoloji vəziyyəti önəmlidir. Bu kimi çağırışların öhdəsindən, məhz sözün əsl mənasında, bütün parametrlərinə görə sosial dövlət kriteriyalarına cavab verən və siyasətində əsas amil vətəndaş olan dövlətlər gəlir.***

Azərbaycan son 30 ildə olduğu kimi, Vətən müharibəsindən sonra da Azərbaycanın müstəqilliyi uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə və müharibə iştirakçısı olmuş şəxslərə diqqət və qayğı ölkəmizdə yüksək səviyyədədir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın müvafiq göstərişlərinə əsasən, dövlət qurumları bu kateqoriyadan olan insanların problemləri ilə yaxından maraqlanır, problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir.

Prezident İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan Fərman və Sərəncamlar, Birinci vitse-prezident Mehriban Əliyevanın şəhid ailələrinə və müharibə əlillərinə mərhəməti, qayğısı çoxsaylı ailələrə böyük sevinc bəxş etməklə yanaşı, təqdirəlayiq hal kimi qiymətləndirilir. Bu gün şəhid ailələrinə, müharibə əlillərinə və veteranlarına göstərilən hərtərəfli qayğı nümunəvi xarakter daşıyır. Şəhid ailələrinin, müharibə əlillərinin, veteranlarının sosial ehtiyaclarının dövlət tərəfindən ödənilməsi, həmçinin Vətən uğrunda öz canından keçmiş şəhidlərin və Qarabağ müharibəsi əlillərinin övladlarının təhsil haqqından azad edilməsi, eyni zamanda, bu insanların mənzil və avtomobillərlə təmin olunması da ölkə ictimaiyyəti tərəfindən yüksək minnətdarlıqla qarşılanır.

*İlham ƏLİYEV: "Bütün şəhid ailələri, Qarabağ qaziləri bilməlidirlər ki, biz daim onların yanındayıq"*



Prezident İlham Əliyev Xocasən qəsəbəsində şəhid ailələri və müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim edilməsi mərasimindəki çıxışında bildirib bir daha bildirib ki, bütün şəhid ailələri, Qarabağ qaziləri bilməlidirlər ki, biz daim onların yanındayıq, sözdə yox, əməldə: "Çünki hər şey əməllə ölçülür. Yaxşı sözlər demək çox asandır, biz bunu eşitmişik və İkinci Qarabağ müharibəsi dövründə bizim bütün sözlərimiz həqiqəti əks etdirirdi. Ermənistan tərəfi isə öz vətəndaşlarını aldadırdı, vicdansızcasına aldadırdı, yalan danışırdı və bunun acısını indi çəkir. Bizim isə sözümüz tam həqiqətdir və verilmiş vədlər də tam yerinə yetirildi. Bu günə qədər verilmiş bütün vədlər, o cümlədən ərazi bütövlüyümüzün bərpası ilə bağlı verilmiş vədlər yerinə yetirildi".

Lakin son günlər qazi adından sui-istifadə edənlər var ki, bu da qazi adına ləkə gətirir.

## QAZİ ADINDAN SUİ-İSTİFADƏ ETMƏK YOLVERİLMƏZDİR

Son vaxtlar bəzi şəxslərin qazi adından sui-istifadə etmələri yolverilməzdir. Çünki ölkəmizdə qazilərə, şəhid ailələrinə dövlət tərəfindən yüksək diqqət və qayğının göstərildiyi hamıya məlumdur.







Ardı Səh. 3

# Şəhid ailələrinə və qazilərə qayğı dövlət siyasətinin prioritetidir






Əvvəli-Səh-2

Əminliklə söyləmək olar ki, Azərbaycan bu kateqoriyadan olan vətəndaşlara göstərilən diqqətə görə dünyanın ən qabaqcıl dövlətidir. Şəhid ailələri və qazilərə olan bu qayğı "Azərbaycan modeli" kimi bir çox dövlətlər tərəfindən öyrənilməkdədir. Lakin qazilərə, şəhid ailələrinə qayğı göstərmək, sadəcə, dövlətin deyil, hər bir vətəndaşın borcudur və sevindiricidir ki, Azərbaycan cəmiyyəti bu baxımdan üzərinə düşən məsuliyyəti lazımınca dərk edir.

Təəssüf doğuran odur ki, bütün müsbət tendensiyalara rəğmən, bəzən mənfi təzahürlərə də rast gəlinir. Bunlardan da biri bəzi şəxslərin özünü heç bir əsas olmadan qazi kimi təqdim etməsi ilə bağlıdır. Təəssüflər olsun ki, bəzən heç bir əsas olmadan özünü qazi kimi təqdim edərək, müxtəlif dövlət qurumlarına qarşı qanunsuz tələblərlə çıxış edən insanlara da rast gəlinir. Cəmiyyəti aldadan, eyni zamanda, dövlətin bu istiqamətdə gördüyü işlərə kölgə salan bu şəxslər belə bir təsəvvür yaratmaq istəyirlər ki, guya onlar qazi olsa da, dövlət diqqətindən kənarda qalıblar. Bu gün cəmiyyətdə qaziləri öz ətrafında cəmləmək, onların adından, nüfuzundan şəxsi ambisiyalarını, çirkin məqsədlərini həyata keçirmək üçün istifadə etməyə çalışan qüvvələr mövcuddur. Qazilərimiz bu məsələdə diqqətli olmalı, belə qüvvələrdən uzaqda durmalı, kimlərinsə onlardan istifadə etməsinə imkan verməməlidir. Əgər onlar hansısa problemlə üzləşiblərsə, bunun həlli üçün əlaqədar dövlət qurumlarına müraciət etməli, problemin qanuni şəkildə həlli üçün hüquqi imkanlardan yararlanmalıdırlar. Və qazilər onu da unutmamalıdırlar ki, irəli sürülən hər bir tələb, hər bir istək qanuna istinad etməli, qanuni olmalıdır. Bu, həmin tələbin reallaşması üçün ən başlıca amildir.

"Mən bütün qaziləri, veteranları 44 günlük Vətən müharibəsində olduğu kimi, bu gün də Ali Baş Komandanın ətrafında sıx birləşməyə çağırıram", - deyən polkovnik vurğulayıb ki, uğura gedən yolumuz birliyimizdən, həmrəyliyimizdən keçir və bu birliyi qorumaq bizim üçün hər şeydən vacibdir. Ancaq təəssüf doğuran odur ki, bəzi qazilərin müxtəlif əsassız iddia və tələblərlə çıxış edirlər. Hansısa qanunsuz təklif və təmənna ilə çıxış etməyin qazi adına, qazi statusuna yaraşmamaqla yanaşı, bu məsələyə hər kəs həssas yanaşması vacibdir.

### MÜHARİBƏ, SƏNGƏR GÖRMƏYƏN ŞƏXSLƏR VAR Kİ, ÖZLƏRİNİ "QAZİ" KİMİ TƏQDİM EDİB PUL QAZANMAQ İSTƏYİRLƏR

Bu da bir reallıqdır ki, qələbəmizdən bir il 7 ay keçməsinə baxmayaraq 44 günlük müharibə bitdikdən sonrakı dövrdə Azərbaycan dövləti tərəfindən şəhid ailələrinə, qazilərə hərtərəfli dəstək göstərilir. Onların bütün ehtiyaclarının qarşılanması, problemlərinin həlli, sosial təminatının yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər görülür. Amma təəssüf ki, bu gün bəzi şəxslər özlərini qazi kimi təqdim edərək, imtiyazlar əldə etmək məqsədilə dövlət orqanlarını şantaj edir, müxtəlif səhnələr quraraq dövlət orqanlarını qınaq hədəfinə çevirməyə cəhd göstərirlər. Şəhid ailəsi və qazi adına ləkə gətirən belə hallar ictimaiyyət tərəfindən də qınaqla qarşılanır.

**FƏZAİL AĞAMALI:** "Şəhid ailələri, qazilər adından istifadə edənlər tərbiyəsizlik, qanun pozuntusudur. Bu cür şəxslərə qarşı çox sərt və hüquqi addımlar atılmalıdır"

Millət vəkili Fəzail Ağamalı bildirib ki, şəhid ailələri, qazilər adından istifadə edənləri tez-tez görürük: "Bu, tərbiyəsizlik, qanun pozuntusudur. Bu cür şəxslərə qarşı çox sərt və hüquqi addımlar atılmalıdır. Şəhid ailələrinin, qazilərin hər birinə bizim rəğbətimiz, hörmətimiz var. Ayrı-ayrı adamlar pul qazanmaq üçün bu müqəddəs addan istifadə edirlər. Onlara qarşı çox sərt, hüquqi addım atılmalıdır. Belə hallar baş verərsə, bu cür insanlara heç bir halda güzəşt etmək olmaz. Elə adlar, elə statuslar var ki, müqəddəsdir, onu gəlir mənbəyinə çevirmək olmaz. Məhz şəhid ailələri və qazilər bu qrupdan olanlardır. Bu cür fırıldaq əməllərə əl atanlar qanun qarşısında çox sərt şəkildə cəzalandırılmalıdır".

Millət vəkili qeyd edib ki, bu cür halların qarşısını almaq üçün bir neçə yol var: "Onlardan birincisi ictimai qınaqdır. İctimai qınaq bu cür halların qarşısını amaq üçün ən yaxşı vasitədir. İkincisi isə qanundur. Dələduzluq maddəsi ilə dövlət, hökumət və xüsusi statusa malik olan şəxslərin adından etmək kimi müddəalar var. Həmin adamlar bu şəkildə cəzalandırıla bilər".

**MUSA QULİYEV:** "Həm dövlətimiz, həm cəmiyyətimiz onlara böyük diqqət və qayğı göstərir"

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, millət vəkili Musa Quliyevin dediyinə görə, şəhid ailəsi, müharibə əlili, Azərbaycanın ərazi bütövlüyü və torpaqlarımızı işğaldan azad edən qazilərin mövqeyi cəmiyyətdə hər zaman öndə tutulur: "Həm dövlətimiz, həm cəmiyyətimiz onlara böyük diqqət və qayğı göstərir. Əlbəttə, onların da böyük haqları var. Burada iki məsələni bir-birindən ayırd etmək lazımdır: həqiqətən şəhid ailəsi və Qarabağ əlili olan şəxslərə münasibət və saxta, qondarma veteran və yaxud Qarabağ əlili vəsiqəsi əldə edən, bu addan istifadə edərək özünə müəyyən imtiyazlar qazanan və cəmiyyətə qarşı hörmətsizlik göstərən adamlar. İkinci qrup sırf cinayətkardır. Buna qarşı hüquqmühafizə orqanları tədbir görməli və vaxtaşırı cəmiyyətə məlumat verməlidir".

**ÇİNGİZ QƏNİZADƏ:** "Təəssüflə deyir ki, müqəddəs qazi adından istifadə edən yaramaz, dələduz insanlar az deyil"

Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə təəssüflə deyir ki, müqəddəs qazi adından istifadə edən yaramaz, dələduz insanlar az deyil: "Postmüharibə dövründə biz bir çox halda bunun şahidi olduq. İnsanlara müəyyən vədlər verməklə qazi ailələrini, şəhid ailələrini aldadan şəxslər, qazilərimizin və şəhid ailələrimizin adlarından sui-istifadə edərək xoşagəlməz davranışlar sərgiləyən saxtakarlar çox oldu. Halbuki belə hərəkətlərə yol verənlərin nə qaziliklə, nə də şəhid ailələri ilə yaxından-uzaqdan bir əlaqəsi var. Qazi adından istifadə edib dilənən, gəlir əldə edən insanlara aramızda və cəmiyyətdə yer olmamalıdır. Bir ayağını itirmiş qazi timsalında küçədə dilənən bir yaramazın polis orqanları tərəfindən ifşa olunması və onun əlilliyinin saxta olmasının görüntülərlə sübut olunması hüquqi aspektdən alqışalayiqdir. Amma ölkəmizdə, xalqımızın arasında bu cür vicdansız adamların olması, saxta qazilərin peyda olması mənəvi baxımdan çox ağrılı məsələdir. Bu, sadəcə, qazi adından sui-istifadə deyil. Bununla həm də ölkəmizdə şəhid ailələrinə və qazilərə "qayğı göstərilmədiyi" rəyini yaradaraq dövlətin imicinə zərər vururlar. Bu, bir növ müqəddəs qazi adının kiçildilməsidir. Yəni dövlət qazilərin qeydinə qalmır, görürsünüz nə gündədir və sair. Bu baxımdan, bunu adi cinayət hesab etmirəm və məncə, həmin şəxs çox sərt formada cəzalandırılmalıdır. Hər birimiz görürük ki, ölkə rəhbərliyi tərəfindən qazilərimizə, şəhid ailələrimizə böyük qayğı və diqqət göstərilir, onların ən kiçik problemlərinə belə həssaslıqla yanaşılır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 2-də Bakının Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün nəzərdə tutulan yeni yaşayış kompleksinin açılışında iştirak ediblər. Yaşayış kompleksi doqquzmərtəbəli 12 binadan və 576 mənzildən ibarətdir. Kompleksin ərazisində 100 yerlik uşaq bağçası və bir inzibati bina inşa olunub. Həmçinin sakinlərin və övladlarının asudə vaxtının səmərəli təşkili üçün şərait yaradılıb və kompleks bütün zəruri infrastrukturla təmin edilib. Bu hadisələr fonunda hansısa bir dələduzun qazi adı ilə dilənçilik etməsini özünü əks etdirən görüntülər xoşagələn deyil. Ölkəmizə gələn xarici qonaqlar, turistlərin Bakı küçələrində dilənən "qazi" görməsi dövlətin öz qazilərinə diqqət və qayğı göstərmədiyi görüntüsünü yarada bilər. Sözsüz ki, bu əməli törədən saxtakar inzibati məsuliyyətə cəlb olunacaq, amma onlara qarşı ictimai rəy formalaşdırmaq üçün maarifləndirici tədbirlər həyata keçirilməlidir".

Bəli, bu gün qazi olmadan, yəni müharibə görməyən, səngər görməyən şəxslər var ki, özünü qazi kimi təqdim edir. Bunlara qarşı da dövlət də, cəmiyyət də öz sözünü deməlidir.

**Mehdi Mehdiyev:** "Qazi, şəhid ailəsi adından sui-istifadə, eləcə də qazi olmayan bəzi şəxslərin özlərini qazi kimi təqdim etməsi utancvericidir"

"Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri" İctimai Birliyinin (İB) sədri Mehdi Mehdiyevin sözlərinə görə, qazi, şəhid ailəsi adından sui-istifadə, eləcə də qazi olmayan bəzi şəxslərin özlərini qazi kimi təqdim etməsi utancvericidir. Çünki bu kimi hallar müharibədə döyüşən şəxsləri, şəhid ailələrini ciddi şəkildə narahat edir. istər Birinci, istərsə də İkinci Qarabağ müharibəsində iştirak edən həqiqi döyüşçülər heç vaxt qazi adına ləkə gətirməz: "Təəssüf ki, qazi adından istifadə halları da müşahidə olunur. Hətta müharibəyə aidiyyatı olmayanlar arasında dələduzluq yolu ilə bu statusa yiyələnmək istəyənlər var. Ya da statusu olmadan sağlam biri hərbi geyim geyinib, əlil arabasına oturaraq bu addan istifadə edənlər olur. Qazi, şəhid ailəsi adından sui-istifadə yolverilməzdir. Belə halların qarşısının alınması üçün ciddi cəza tədbirlərinin görülməsi məsləhətdir. Yalnız bu halda digərlərinə örnək olmaq olar. Dövlətin hərtərəfli dəstəyi, diqqət və qayğısı fonunda qanunazidd əməllər ictimaiyyət tərəfindən qınanılmalıdır. Çalışırıq ki, belə şəxsləri tənbeh edərək yollarından çəkindirək".

Birlik sədrinin sözlərinə görə, bəzi şəxslərin özlərini qazi kimi təqdim etməsi, imtiyazlar əldə etmək məqsədilə dövlət orqanlarını şantaj etməsi, müxtəlif səhnələr quraraq dövlət orqanlarını qınaq hədəfinə çevirmək cəhdləri yolverilməzdir və belə halların qarşısı qətiyyətlə alınmalıdır: "Şəhid ailəsi və qazi adına ləkə gətirən belə hallarla bağlı ictimaiyyət nümayəndələri də qəti addımlar atmalıdır".

### "BİZ BUNU HEÇ YERDƏ GÖRMƏMİŞİK, BU TƏCRÜBƏNİ HEÇ YERDƏN GƏTİRMƏMİŞİK"

Bəli, bu gün dövlət başçımızın söylədiyi kimi: "Bu həssas kateqoriyadan olan insanlara müəyyən dərəcədə təsəlli vermək və onların dərdinə şərik olmaq üçün biz bu addımı atırıq. Əlbəttə, bu, böyük vəsait tələb edir. İndi hər kəs bilir ki, bir mənzilin qiyməti neçəyə başa gəlir və bu, büdcə üçün böyük bir yükdür. Amma biz bu yükün altına girmişik və sona qədər bu işi aparacağıq, bu kateqoriyadan olan ta axırıncı insan mənzillə, avtomobillə təmin olunana qədər bu məsələ ilə məşğul olacağıq".

Dövlət başçısı, eyni zamanda, şəhid ailələrinin sosial təminatı ilə də bağlı fikirlərini bildirib: "Eyni zamanda, şəhid ailələrinin sosial təminatı da yaxşılaşır. Onlara nəzərdə tutulmuş müavinətlərin məbləği müntəzəm olaraq artırılır. Biz daim onları diqqət mərkəzində saxlayacağıq".

Belə olan halda bu uğurları görə bilməyən, gələcək nəsillərə pis nümunələr qoymaq istəyən satqınlar cəzalandırılmalıdır. Çünki bəzi şəxslərin özlərini qazi kimi təqdim etməsi, imtiyazlar əldə etmək məqsədilə dövlət orqanlarını şantaj etməsi, müxtəlif səhnələr quraraq dövlət orqanlarını qınaq hədəfinə çevirmək cəhdləri yolverilməzdir, həm də qazi adına ləkə gətirənlər müharibədə döyüşənləri, şəhid ailələrini narahat edir. Ona görə də hamılıqla, belə qazi kölgəsi altında araqarışdıranlara qarşı dövlət də, cəmiyyət bir olmalı, öz sözünü deməlidir.

***RƏFİQƏ HÜSEYNOVA***

# İrəvan belə davam edərsə, son söz yenə də rəsmi Bakınındır!




## *İlham Əliyev: "Hesab edirəm, bu, çox böyük bir səhv olacaq"*

***44** günlük Vətən müharibəsinin Azərbaycanın Zəfəri ilə başa çatmasının ardınca Cənubi Qafqazda yeni geosiyasi proseslərin başlanğıcı, regionda yeni çağırışlar meydana gəldi. Belə ki, məhz Zəfər reallığı nəticəsində Cənubi Qafqazda cərəyan edən bütün proseslər məhz Azərbaycanın birmənalı liderliyi və diktəsi altında həyata keçirilir. Beləliklə, 44 günlük müharibədən sonra imzalanan və Ermənistanın kapitulyasiyasını rəsmiləşdirən üçtərəfli bəyanat növbəti mərhələdə Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanmasına doğru yönəldi. Lakin müharibənin başa çatmasından 20 aya yaxın zaman keçməsinə baxmayaraq rəsmi İrəvan bu prosesi ləngidir.*

### Ermənistanın bu məsələdəki yanlış addımları Azərbaycanın səbrini haqlı olaraq tükəndirir

Təbii ki, birmənalı sülhün əldə olunmaması isə qarşıda dayanan planların realizəsinə ciddi maneələr yaradır. Belə ki, region ölkələrinin yeni əməkdaşlıq formatlarının qurulması və Zəngəzur dəhlizinin yaradılması başda olmaqla, bir çox layihənin reallaşması istiqamətində ilk olaraq iki ölkə arasında sərhədlərin delimitasiyası və demarkasiyasının aparılması əsas şərtlərdən biri və birincisidir. Çünki buradakı məqsəd də onu ehtiva edir ki, sərhədlərin müəyyənləşməsinin zəruriliyi qarşıdakı illərdə sərhədyanı ərazilərdə baş verə biləcək hər hansı münaqişələrdən sığortalanmaq anlamını daşıyır. Ermənistanın isə bu məsələdəki yanlış addımları Azərbaycanın səbrini haqlı olaraq tükəndirir. Halbuki, hazırkı dövrə qədər ölkələr arasında yaradılmış müvafiq komissiyalar Brüssel, Moskva və Soçi görüşlərində əldə edilən razılaşmalar fonunda iş aparırlar. Daha dəqiq desək, rəsmi Bakı bütün öhdəliklərini icra edir, İrəvan isə prosesi uzatmaqla vəziyyətin yenidən gərginləşməsinə səbəblər yaradır. Bu isə rəsmi və qalib Bakının İrəvana qarşı digər vasitələrdən istifadə etməsinə kifayət qədər legitimlik verir.

Ancaq bu da faktdır ki, müharibədəki ağır məğlubiyyətindən sonra Ermənistan müxtəlif dairələrdən imdad və dəstək umur. Üstəlik, ABŞ və Fransadakı erməni diaspor təşkilatları, eləcə də Ermənistandakı revanşist qüvvələr həssas məqamda yaranmış kövrək sülhün yenidən müharibə ilə əvəzlənməsinə səy göstərirlər. Ancaq unudurlar ki, növbəti müharibə bütövlükdə Ermənistanın xəritədən silinməsi ilə başa çata bilər.

### Ermənistanın Təhlükəsizlik Şurasının sədri Armen Qriqoryan Azərbaycanı ittiham edirsə...

Başqa tərəfdən, sərhəd dəqiqləşmələrinin bu günə qədər reallaşmamasına daha bir səbəb rəsmi İrəvanın beynəlxalq təsisatların, xüsusilə də ATƏT-in Minsk qrupunun köməyi ilə qondarma "dqr" adlı psevdoqurumun "status" alması kimi utopik ideyalarla baş qatması cəhdləridir. İstər ötən dövr ərzində, istərsə də son vaxtlarda sərhəddə baş verən məlum insidentlər də bilavasitə Ermənistanın qeyri-adekvat hərəkətləri səbəbindən yaranır.

Maraqlıdır ki, bütün bunların yerinə məhz Ermənistan Azərbaycanı ittiham edir. Misal üçün, Ermənistan hökumətinin Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan delimitasiya ilə bağlı ikinci görüşün nəyə görə yubandığını, eləcə də bütövlükdə prosesin dalana dirəndiyini belə cavablandırıb: "Mən deməzdim ki, bu, dalana dirənib, çünki delimitasiya ilə bağlı ilk görüş baş nazirin müavinləri səviyyəsində keçirilib və hər iki tərəf bu görüşü müsbət qiymətləndirib. Növbəti görüş Moskvada, daha sonra Brüsseldə keçiriləcək. Ümid edirik ki, görüşlə bağlı razılıq ən qısa zamanda əldə olunacaq. Ermənistan danışıqlara hazırdır (?!-R.R.) və Azərbaycan tərəfdən belə siyasi iradə (???!!!-R.R.) olarsa, daha sürətlə irəliləmək mümkün olacaq. Erməni tərəfi substantiv danışıqlara həmişə hazırdır və Azərbaycan belə siyasi iradə göstərsə, təbii ki, biz daha sürətlə irəliləyəcəyik".

Göründüyü kimi, Armen Qriqoryan prosesin yubanmasını, əslində, heç bir əsası olmadan (!!!) Azərnaycan tərəfinin üzərinə yıxmağa cəhd göstərir, amma unudur ki, belə cəhdlər boş qalacaq.

### Azərbaycan Prezidenti: "Bizim Ermənistanın ərazi bütövlüyünü tanımamaq üçün bəlkə də yüz dəfə daha çox əsasımız var"

Bu müstəvidə biz Azərbaycan Prezidenti İlham Əliyevin mühüm bəyanatlarından birini xatırlaya bilərik. Onun sözlərinə görə, Azərbaycan Ermənistanla sülh müqaviləsini imzalamağa hazır olsa da, onlar tərəfindən buna rəsmi reaksiya verilmir: "Qeyri-rəsmi kanallarla bizə çatan məlumat budur ki, Ermənistan buna hazır deyil. Hesab edirəm, bu, çox böyük bir səhv olacaq. Necə ki, müharibə ərəfəsində və müharibə dövründə Ermənistan tərəfi böyük səhvlər buraxıb, hərbi cinayətlər törədib. Bu, növbəti böyük səhv ola bilər".

Bu arada daha bir faktor budur ki, sözügedən məsələdə beynəlxalq təşkilatlar və ayrı-ayrı maraqlı ölkələrin Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması və sərhədlərin müəyyənləşdirilməsinə öz dəstəklərini yalnız dildə ifadə etmələri, reallıqda isə bunun üçün Ermənistana hər hansı ciddi təzyiq göstərməmələri mövzunun dalana dirənməsinə, eyni zamanda sülhün əldə edilməsi yönündə problemlərə səbəb olur. Eyni zamanda, sadalanan hallara rəğmən, Ermənistan və regionda sülhə xələl gətirmək istəyən bəzi xarici qüvvələr bölgədəki yeni reallığı dərk etməli, revanşist xülyalardan əl çəkməli, sərhədlərin delimitasiyası və demarkasiyasının hər hansı qeydşərt olmadan həyata keçirilməsinin vacibliyini, sülh müqaviləsinin imzalanmasının, tərəflər arasında üçtərəfli bəyanatlara və digər razılaşmalara əməl etməyin qaçılmaz olduğunu anlamalıdır. Bu xüsusda biz Azərbaycan Prezidenti İlham Əliyevin daha bir bəyanatını xatırlada bilərik: "Mən demişəm, bizim xoşniyyətli davranışımız şərt deyil ki, əbədi olacaq və şərt deyil ki, bu təkliflər əbədi masa üzərində qalacaq. Əgər bizim ərazi bütövlüyümüzü tanımaq istəmirlərsə, o zaman biz də onların ərazi bütövlüyünü tanımayacağıq. Bizim Ermənistanın ərazi bütövlüyünü tanımamaq üçün bəlkə də yüz dəfə daha çox əsasımız var (Tarixi Qərbi Zəngəzur torpaqlarımız və s. -R.R.), nəinki onların bizim ərazi bütövlüyümüzü tanımaması üçün..."

Beləliklə, fakt budur ki, Ermənistanın sülh sazişini bağlamaqdan müxtəlif bəhanələrlə yayınması, prosesi uzatması və ölkə daxilində revanşist qüvvələrin baş qaldırması birbaşa (!) Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərini tanımaması anlamını daışıyır. Təbii ki, belə davam edərsə, son söz yenə də rəsmi Bakının olacaq.

**Rövşən RƏSULOV**

## "Bütün məsuliyyət Ermənistan tərəfinin üzərində qalacaq"



***"Ermənistan belə təxribatlara əl atmaqla vəziyyəti daha da gərginləşdirməyə çalışır". Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert Vüqar Əhmədov deyib.***

Onun sözlərinə görə, Ermənistana həm Azərbaycan, həm də beynəlxalq təşkilatlar tərəfindən ciddi təzyiqlər var: "Bu ölkə sülh prosesi ilə bağlı öz üzərinə öhdəliklər götürüb və bu öhdəliklərdən yayınmaq üçün bu cür təxribatlara əl atır. Sözsüz ki, Azərbaycan Ermənistanla sülh müqaviləsi məsələsində səbrli davranır, təxribatlara baxmayaraq Ermənistandan konstruktiv yanaşma gözləyir. Lakin Ermənistan yenidən məsələni gərgin nöqtəyə gətirir. Bu da digər tərəfdən Ermənistanın özünün dalana dirənməsindən xəbər verir. Çünki indiki hakimiyyət Azərbaycanla sülh müqaviləsi olacağı təqdirdə daxili vəziyyətin gərginləşəcəyindən və Paşinyanın hakimiyyəti itirəcəyindən ehtiyat edir. Lakin bu sonsuz belə davam edə bilməz və bu istiqamətdə ciddi dəyişiklik olmasa bütün məsuliyyət Ermənistan tərəfinin üzərində qalacaq".

**Arzu Qurbanlı**

# Tərəqqi yolunun başlanğıcı - 14 iyul 1969-cu il!



***1969-cu il 14 iyul tarixinin Azərbaycanın yeni tarixində müstəsna yeri var. Həmin tarixdən başlayaraq respublika həyatının bütün sahələri köklü islahat və sürətli inkişaf yoluna qədəm qoyub. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə gələcək müstəqil dövlətin iqtisadi qüdrətinin təməli qoyulub, respublika inkişaf tempinə görə keçmiş ittifaq miqyasında öncül sıralara çıxıb. Bu baxımdan Ulu Öndərin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ilin 14 iyul günü xalqımızın tarixi taleyində oynadığı misilsiz rolu ilə daim xatırlanır.***

Bu bay-tarix Azərbaycanın xilasının birinci mərhələsi, xalqın özünə qayıdış tarixidir. Dünya şöhrətli siyasi xadim öz müdrik fəaliyyəti ilə müasir tariximizin ən şanlı və parlaq salnaməsini yaradıb. Ulu Öndər siyasi fəaliyyətinin bütün mərhələlərində Vətənə, xalqa, torpağa sonsuz məhəbbət və sədaqət hissi ilə, qurub-yaratmaq amalı ilə yaşamış, hər zaman milli dəyərlərə bağlı olmuşdur. Ümummilli Lider bütün zəngin və mənalı həyatı boyu daim xalqını, Vətənini düşünmüş, Azərbaycanın ən çətin məqamlarında onu üzləşdiyi faciələrdən, çətinliklərdən xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, tarixi hadisələrin inkişaf məcrasını qabaqcadan müəyyən edə bilmişdir.

Ötən əsrin 60-cı illərində Azərbaycan iqtisadi və mədəni tənəzzül dövrünü yaşayırdı. O zaman məhz Ulu Öndər Heydər Əliyevin gəlişi ilə cəmiyyət həyatının bütün sahələrində sürətli yüksəliş, milli ruhun inkişafı və mənəviyyatın tərəqqisi dövrü yaşandı. Belə ki, 1969-cu ilin 14 iyulunda Ulu Öndər Heydər Əliyev Azərbaycan KP MK-nın I katibi seçildi. Ulu Öndər Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsindən sonrakı dövr milli özünüdərkin, milli özünəqayıdışın başlanğıcı kimi qəbul olunur. Ulu Öndər Heydər Əliyevin Azərbaycan KP MK-nın I katibi təyin olunduğu il tarixində yeni dövrün, Azərbaycanın sosial-iqtisadi həyatında inkişafın bünövrəsi qoyuldu. 1969-cu il avqustun 5-də Azərbaycan KP MK-nın plenumunda etdiyi tarixi çıxış imperiya rəhbərliyini təşvişə salmışdı. Azərbaycan KP MK-nın 5 avqust 1969-cu il plenumunda Azərbaycanın gələcək inkişafının strateji istiqamətləri müəyyənləşdirildi. Bütünlüklə sovet cəmiyyətini bürüyən rüşvətxorluq, korrupsiya hallarının etiraf olunması, ittifaq ölkəsində böyük hadisəyə çevrildi. Ölkədəki acınacaqlı vəziyyət, əhalinin məmurlar tərəfindən əsassız olaraq incidilmə hallarının, rüşvət və korrupsiyanın qarşısının alınması üçün mühüm tədbirlər hazırlandı.

O dövrlərdə bütün yaşayış məntəqəsində - şəhərlərdə, qəsəbə və kəndlərdə əhalinin mənzil-məişət şəraiti kökündən yaxşılaşdırıldı. Hazırlanan strateji proqrama əsasən, 1970-ci illərdə bütün Azərbaycan əzəmətli tikinti meydanına çevrildi. Ümumiyyətlə, ölkənin hər yerində infrastruktur yaradıldı, yeni xidmət sahələri açıldı. Ümummilli Lider hələ o illərdə Azərbaycanın gələcəyini hesablayır, bugününü qururdu. Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanın hər bir yerində nəhəng layihələr, yenidənqurma işləri həyata keçirilirdi.

## ÖLKƏNİN GƏLƏCƏK İNKİŞAF STRATEGİYASINA HESABLANMIŞ İSLAHATLAR

1969-cu ildə hakimiyyətə gəldiyi ilk günlərdən Heydər Əliyev bütün sahələrdə yüksək ixtisaslı kadrların yetişdirilib hazırlanması məsələsinə böyük diqqət və qayğı göstərdi. Bu kadrların böyük əksəriyyətini respublikanın özündə hazırlamaq məqsədilə o, ali və orta ixtisas müəssisələrinin maddi-texniki bazasını möhkəmləndirdi. Onların yeni binalar və avadanlıqlarla təchiz olunmasını təmin etdi.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və gərgin əməyi, səyi nəticəsində Cəmşid Naxçıvanski adına Hərbi məktəbin açılması Azərbaycanın həyatında çox mühüm bir hadisə oldu. Ulu Öndər Heydər Əliyevin milli tərəqqi - Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafı yolundakı tarixi xidmətlərinin təhlili göstərir ki, mənəvi-ideoloji və siyasi prinsipə xidmət edən siyasi islahatların aparılması ölkənin gələcək inkişaf strategiyasına hesablanıb. Ulu Öndər Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafındakı müstəsna xidmətlərindən biri kimi Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin, 170-dən çox ən məşhur ali məktəbində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən 250-dən çox ixtisas üzrə azərbaycanlının yüksək ixtisaslı mütəxəssis kimi hazırlanması həyata keçirilmişdir. 1970-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə azərbaycanlı gənclər Moskvanın aparıcı ali məktəblərinə təhsil almağa göndərildi.

## XALQIN QURTULUŞ YOLU

Xalqımızın Ümummilli Lideri, Dahi Şəxsiyyət Heydər Əliyevin uzaqgörənliyi, fədakarlığı, müdrikliyi Onu bütün dünya azərbaycanlılarının Liderinə çevirib. Bütün ömrünü canından artıq sevdiyi xalqına, ölkəsinə həsr edən Ulu Öndər Heydər Əliyev tariximizdə müstəqilliyimizin Memarı və Qurucusu olaraq adını əbədiləşdirib. Ulu Öndər Heydər Əliyevin düşünülmüş siyasəti dövlətin gələcək həyatının inkişafına hesablanmışdır. Belə ki, Ulu Öndər Azərbaycan dövlətini və xalqını dövrün ən çətin sınaqlarından çıxararaq, ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmuşdur. O, Azərbaycanın dövlət müstəqilliyinin qorunmasında və möhkəmləndirilməsində titanik fəaliyyət göstərərək fundamental uğurlara imza atıb. Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycan dövlətinin dirçəlməsində, onun mövqeyinin, təməlinin möhkəmlənməsində rolu əvəzsiz olmuşdur. Məhz 15 İyun xalqımızın tarixinə böyük əhəmiyyət daşıyan günlərdən biri - Milli Qurtuluş Günü kimi daxil olmuşdur. 1993-cü ilin 15 iyununda Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycanda hakimiyyətə qayıdaraq xilaskarlıq missiyasını yerinə yetirməsi xalqımız tərəfindən dövlətimizin qurtuluşu kimi qeyd olunur və həmin tarixdən ölkəmizin yeni bir dövrü başlanıb. O dövrə nəzər salarkən baş verən hadisələrin xalqı, bütövlükdə, uçuruma sürüklədiyinin şahidi oluruq. Belə bir zamanda xalqın təkidi və istəyi ilə hakimiyyətə gələn, Qayıdışı ilə böyük nailiyyətləri Azərbaycan salnaməsinə daxil edən Ulu Öndər Heydər Əliyev Ona etimad göstərənlərin ümidini tez bir zamanda doğrultdu. Ulu Öndərin məqsədyönlü siyasəti ilə Azərbaycanın şanlı və silinməz tarixi yazıldı. Dahi Şəxsiyyət xalqına möhkəm dövlətçilik təsisatlarına malik, demokratik və bəşəri dəyərlərə sadiq, dünya birliyində layiqli yer tutan müasir müstəqil Azərbaycanı bəxş etdi. Ölkəmizin qazandığı bütün uğur və nailiyyətlər, inkişaf və tərəqqi, xalqımızın milli dəyərlərinin qorunması Heydər Əliyev Şəxsiyyətinin bəhrəsidir. Ölkəmiz demokratiya, hüquqi dövlət quruculuğu yolu ilə irəlilədi, xalq birliyi yarandı. 1993-cü ilin oktyabr ayının 3-də YAP-ın Sədri Heydər Əliyevin Prezident seçilməsi ölkəmizdə iqtisadi sabitliyin təmin edilməsi, tənəzzülə uğramasının qarşısının alınması və yeni dövrün tələblərinə uyğun şəkildə islahatların həyata keçirilməsində böyük əhəmiyyət kəsb etdi. Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında başlıca xidmətləri sırasında dövlət müstəqilliyinin qorunub saxlanılması və inkişaf etdirilməsi istiqamətində görülən işlərdən biri kimi dövlət quruculuğunun hüquqi bazasının yaradılması idi. 1995-ci ildə qəbul edilmiş Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını qoydu. Ulu Öndərin birbaşa təşəbbüsü ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu Sənəd, müstəqil Azərbaycanın ilk Konstitusiyası kimi tarixə yazıldı. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar yaratdı. Onun gərgin səyləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi məqsədi ilə ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradıldı.

## MÜASİR MÜSTƏQİL AZƏRBAYCANIN SEÇDİYİ STRATEJİ YOL MİLLİ MARAQLARA VƏ XALQIN ALİ İRADƏSİNƏ ƏSASLANIR

Bu gün Azərbaycanın bütün sahələrində Ulu Öndər Heydər Əliyevin böyüklüyü görünür. Onun Şəxsiyyəti, məhz əməllərini yaşadan Azərbaycanın, bütövlükdə panoramasında özünü göstərir. Müasir həyatımızda Azərbaycana marağın artması Ulu Öndər Heydər Əliyevin düzgün müəyyənləşdirdiyi siyasət nəticəsində mümkün olub. Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Möhtərəm Prezidentimiz İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın böyük nailiyyətlər əldə etməsinə səbəb olub. Müasir dövrümüzdə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə uğurlu islahatlar aparılır, Azərbaycan regionun lider dövlətinə çevrilib, diplomatiya sahəsində uğurlar əldə edilib. Prezident İlham Əliyevin imzaladığı məqsədyönlü fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə, obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin dinamik yüksəlişini və insanların rifahının yüksəlməsini təmin edib. 2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrdə yeni nailiyyətlərlə müşahidə olunan sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub.

Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağı edərək qələbə qazanması tariximizə yeni gün olaraq daxil edildi. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Prezident İlham Əliyevin dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu - Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. 30 il ərzində xarabazara çevrilmiş torpaqlarımızda canlanma müşahidə olunmaqdadır.

Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Bu gün Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib və Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da yüksək zirvələr fəth edir. Ümummilli liderin layiqli davamçısı olan Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu daxili və xarici siyasət kursu Ulu Öndər Heydər Əliyev ideyalarına söykənir və əldə edilən dinamik inkişaf, sarsılmaz ictimai-siyasi sabitlik göstərir ki, müasir müstəqil Azərbaycanın seçdiyi strateji yol milli maraqlara və xalqın ali iradəsinə əsaslanır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# ABŞ sanksiyalarına kim və necə düşə bilər?

***Amerika Birləşmiş Ştatları Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistana sanksiya tətbiq edilən malların Rusiyaya çatdırılması ilə bağlı xəbərdarlıq edib. Vaşinqton yerli şirkətlərdən məhdudiyyətləri aşmaq cəhdlərində "ayıq-sayıq" olmağı tələb edir. ABŞ hökumətinin Ukraynada xüsusi əməliyyat keçirməsinə görə Rusiya və onun müttəfiqi Belarusa qarşı tətbiq etdiyi sanksiyalardan yayınmaq imkanlarına görə etdiyi xəbərdarlıqda dörd Mərkəzi Asiya dövlətinin adı çəkilib.***



Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistanın Vaşinqtonun "məhdud və ya nəzarət edilən ixrac mallarının daha sonra Rusiya və ya Belarusa daşınması üçün tez-tez istifadə olunan tranzit məntəqələri" adlandırdığı 18 dövlət arasında olduğu qeyd edilib. Siyahı ABŞ Ticarət Departamentinin Maliyyə Cinayətlərinə Qarşı Mübarizə Agentliyi və Sənaye və Təhlükəsizlik Bürosunun ötən ayın sonunda verdiyi birgə xəbərdarlıqda yer alıb. Onun məqsədi "Rusiya və Belarusun sanksiyalarından yayınmaq üçün potensial cəhdlərə qarşı yüksək sayıqlığa çağırmaq" idi.

Bəyanatda digər ölkələrin - Ermənistan, Gürcüstan, Çin, Braziliya, İsrail, Hindistan, Sinqapur və Tayvanın da adı çəkilir. Bu ölkələr sanksiyalardan yayınmada şəriklikdə ittiham olunmasalar da sabah onların Vaşinqtonun qəzəbinə gəlməyəcəyi də dəqiq deyil. Bununla belə, sənəddə qeyd edilir ki, bu ölkələr "məhdud və ya nəzarət edilən ixrac mallarının daşınmasının qeyd edildiyi, daha sonra Rusiya və ya Belarusiyaya gedən tez-tez istifadə edilən tranzit məntəqələrindən bəziləri"dir.

"Bəzi hallarda məhdudlaşdırılmış ABŞ malları qanuni olaraq bu və digər yurisdiksiyalara digər hazır məhsulların istehsalı üçün komponentlər kimi ixrac edilə bilər. Bununla belə, belə hazır məhsulların və malların potensial olaraq əlavə yükləmə məntəqələri vasitəsilə Rusiya və Belarusa ixracı həyata keçirilə bilər ki, bu da qadağandır", - bəyanatda deyilir.

Siyahıya sanksiyalardan yayınmaq üçün istifadə oluna biləcək bütün tranzit məntəqələri daxil edilməyib, lakin qeyd edilir ki, o, "ixracla bağlı maliyyə əməliyyatlarının riskə əsaslanan yoxlanışına yardım etmək" üçün nəzərdə tutulub. Bəyanatda həmçinin şirkətlərin kommersiya tərəfdaşlarından birinin sanksiyalardan yayınmada əli olması ehtimalını tanımalı olduqları 22 əlamət sadalanır.

İlk belə əlamət "problemli malları daşıyan və Rusiya və Belarusiyaya ixrac üçün daşınma məntəqələri kimi tanınan nəqliyyat dəhlizlərindən istifadə edən" hər hansı şirkətlərlə münasibətə aiddir. Bu bəndin qeydində Mərkəzi Asiya dövlətlərinin daxil olduğu 18 ölkənin siyahısı verilmişdir.

Bundan əlavə, ABŞ hökuməti "onların Rusiya və Belarusiyaya yönləndirilməsi və onlardan hərbi və müdafiə qabiliyyətinin artırılması üçün son istifadə imkanları ilə əlaqədar xüsusi narahatlıq doğuran" maddələri sadalayır. Bu məhsullara təyyarə hissələri, antenalar, GPS sistemləri və neft-mədən avadanlıqları daxildir.

ABŞ hökuməti eyni zamanda xəbərdarlıq edib ki, Vaşinqton sanksiyalara məruz qalan Rusiya firması ilə işləyən Özbəkistan şirkətinə qarşı məhdudlaşdırıcı tədbirlər tətbiq edib. İddia olunur ki, bu əməkdaşlıq sanksiyalardan yayınmaqda şəriklik demək idi. Dövlət Departamenti iyunun sonunda bildirib ki, "Promkomplektlogistika" Rusiyanın "Radiavtomatika" şirkətini "ABŞ-ın tətbiq etdiyi sanksiyalardan yayınma cəhdlərində" "fəal dəstəkləyib". Şirkət tərəfindən yol verilən qanun pozuntuları arasında "Radioavtomatika" şirkətinə "elektron komponentlərin, o cümlədən mikrosxemlərin təhvil verilməsi"; Rusiya şirkəti Rusiya hərbi sənayesini xarici komponentlərlə təmin etməklə məşğuldur.

Bu yaxınlarda başqa bir insidentdə Qazaxıstan dövlət dəmir yolu şirkətinə məxsus Rusiya bayrağı altında üzən gəminin ətrafında yaranmış vəziyyətə qarışmışdı. Ukraynaya görə, o, oğurlanmış taxıl daşıyıb.

Ermənistanın da siyahıda "möhkəmlənəcəyi" istisna deyil. Bu ölkənin bütün sənaye obyektlərinin Rusiyanın nəzarəsi altında olduğunu nəzərə alsaq rəsmi İrəvanın manevr imkanlarının heç olmadığı artıq göz qabağındadır. Əslində Ermənistanın fərqli addımlar atmaq ehtimalı da yoxdur. Nə ABŞ hökumətinə yox deyə bilmir, nə də Moskvaya kafa tuta bilir. Yalnız Ermənistanın özəl və dövlət şirkətləri üçüncü ölkələrin məhsullarını sanksiyalardan kənar, gizli şəkildə Rusiyaya daşıya bilər ki, bunun da bədəli çox ağır ola bilər. Nəzərə alsaq ki, Ermənistandakı ABŞ səfirliyindəki əməkdaşların sayı, nəinki regionda, o cümlədən postsovet məkanına aid olan ölkələrdəki diplomatların sayından dəfələrlə çoxdur, onda Ermənistanın gizli bir iş tutacağı heç inandırıcı görünmür.

**V.VƏLİYEV**

# DİQQƏT: Yayda bu qidalardan uzaq durun!



"Yay fəslində temperatur yüksək olduğuna görə, nəmişlik nisbəti daha yüksək olduğuna görə orqanizmdə istilik yüksəlir. Eyni zamanda, metobilizma yavaşladığına görə, mütləq şəkildə biz qidalarımıza diqqət etməliyik. Qida seçərkən ilk növbədə daha tez həzm olunan, mənşəyi bilinən yüngül qidalara üstünlük verməliyik. Xüsusilə, yüksək təzyiq xəstələri, ürək, qan-damar problemləri plan insanlar, xroniki xəstəliyi olan, şəkər və diabet xəstələri yüksək temperaturlu havada daha həssas olurlar. Onların hər hansı bir qidaya həssaslığı daha ağır nəticələnə bilər. Bu səbəbdən mütləq şəkildə bu insanlar daha diqqətli olmalıdırlar". Bu sözləri S?A-ya açıqlamasında sağlam qidalanma üzrə mütəxəssis Məhsəti Hüseynova deyib.



Onun sözlərinə görə, bu havalarda daha çox tərlədiyimizə görə, maye və mineral itkimizin olmaması üçün mütləq şəkildə gün ərzində iki və ya iki litr yarım su içmək lazımdır: "Təbii ki, bir çox hallarda insanlar çaya və kofeyə üstünlük verirlər. Bu, yay fəsli müddətində yolverilməzdir. Çünki qazlı və rəngli içkilər zərərlidir, eyni zamanda çay və kofenin içərisində yüksək kofein olduğu üçün bu da orqanizmdə maye itkisinə səbəb olur. Bu içkilərin əvəzinə sadə sulardan, bitki çaylarından, nanə və limonlu çaydan istifadə etmək olar. Yeməklərdə daha çox hər qrupdan olan karbohidratlar, zülallar, yağların faydalı olanına üstünlük verməliyik. Çünki yaz və yay aylarında həddindən artıq yağlı qidaları qəbul etdikdə orqanizmdə, xüsusilə də qaraciyərdə piylənmə yaranır. Yeməkləri bişirərkən çox qızartmamağa, qovurmamağa diqqət etməliyik. Bunun əvəzinə daha çox qaynadılmış, manqalda bişmiş və ya az bişmiş qidaları qəbul etmək lazımdır. Eyni zamanda, daha çox orqanizmin immun sistemini gücləndirmək üçün meyvə və tərəvəzlərdən istifadə etməliyik. Gün ərzində ən az 5 ədəd istehlak edilməlidir. Yay mövsümündə xüsusilə xəmir yeməklərində diqqətli olmalıyıq. Çünki xəmir yeməkləri orqanizmdə həddindən çox gec həzm olunur və enerjiyə çevrilmədiyi üçün ağırlıq yaradır. Bir çox hallarda yorğunluğa, yuxusuzluğa, aqressivliyə səbəb olur. Bu kimi yeməklərin qəbul olunması yay mövsümündə yolverilməzdir. Ümumiyyətlə, yay aylarında açıq şəkildə satılan qidalardan uzaq durmaq lazımdır. Xüsusilə ət, yumurta, süd və balıq kimi məhsulları açıq şəkildə almaq təhlükəlidir".

**Arzu Qurbanlı**

# "Milli-mənəvi dəyərlərimiz qloballaşmanın mənfi təsirlərinə qarşı etibarlı sipərdir" mövzusunda tədbir keçirilib





*Gənclər arasında antinarkotik təbliğatın daha da gücləndirilməsi, eyni zamanda bu sahə üzrə qəbul edilən Dövlət Proqramının icrası ilə əlaqədar Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun və "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin imzaladığı birgə Tədbirlər Planı çərçivəsində iyulun 13-də YAP Mərkəzi Aparatı və Binəqədi rayon təşkilatının birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərimiz qloballaşmanın mənfi təsirlərinə qarşı etibarlı sipərdir" adlı tədbir keçirilib.*









YAP Binəqədi rayon təşkilatının inzibati binasında keçirilən tədbiri giriş sözü ilə açan təşkilatın sədri Vüsar İsmayılov deyib ki, narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq müasir dünyanı ciddi narahat edən qlobal problemlərdən biri olmaqla bərabər, insanların sağlamlığına təhlükə yaradan, cəmiyyətin mənəvi və əxlaqi dəyərlərinə zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən amildir. Qeyd olunub ki, bu bəşəri fəlakətin qarşısının alınmasında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi mühüm əhəmiyyət daşıyır.

Sonra tədbirdə çıxış edən YAP Veteranlar Şurasının sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdir müavini Zəkiyyə Musayeva, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupunun rəhbərinin müavini Tanrıverdi Aydınov, Milli Məclisin deputatı, YAP Gənclər Birliyinin üzvü Səbinə Xasayeva, Binəqədi Rayon Polis İdarəsinin Cinayət Axtarış şöbəsinin baş əməliyyat müvəkkili, polis baş leytenantı İmran Babayev, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini, icra hakimiyyəti aparatının Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə komissiyasının sədri Sevinc Süleymanova və digərləri bildiriblər ki, ölkəmizdə narkomaniya ilə mübarizənin məhz dövlət və ümummilli siyasət səviyyəsinə qaldırılması, narkomanlığın profilaktikasına və dəf edilməsinə son dərəcə ciddi əhəmiyyət verilməsi, narkotizmin hər cür təzahürünə qarşı prinsipal və barışmaz mövqe Azərbaycanın bugünkü münasibətini xarakterizə edir. Ölkəmizdə bununla bağlı müvafiq dövlət proqramları çərçivəsində ardıcıl siyasət, zəruri tədbirlər, o cümlədən maarifləndirmə işləri həyata keçirilir. Eləcə də, gənclərin narkomaniya və digər zərərli vərdişlərdən qorunmasının zəruriliyi vurğulanaraq onların milli-mənəvi dəyərlərimiz əsasında tərbiyə edilməsinin vacibliyi diqqətə çatdırılıb.

Çıxışlarda qeyd edilib ki, cəmiyyətin sağlamlığı ölkənin gələcəyi üçün müstəsna önəm kəsb edir. Bu baxımdan gənc nəslin hər cür zərərli vərdişlərə aludəçilikdən qorunması, xüsusilə narkomaniya ilə mübarizə böyük önəm kəsb edir. Ölkəmizin gələcək taleyi onun gənclərindən asılıdır. Məhz bu baxımdan, adət-ənənələrimizə, milli dəyərlərimizə, soykökünə bağlı, sağlam düşüncəli şəxsiyyətin formalaşması önəmlidir. Zərərli vərdişlərə qarşı mübarizədə, cəmiyyətdə mənfi meyllərin aradan qaldırılmasında xalqımızın mənəvi dünyasını zənginləşdirən, tariximizi, mədəniyyətimizi ucaldan milli-mənəvi və əxlaqi dəyərlərin rolunun böyük olduğu diqqətə çatdırılıb.

Tədbir zamanı iştirakçılara Dövlət Komissiyasının işçi qrupu tərəfindən hazırlanmış əyani vəsaitlər, bukletlər ("Narkotiklər haqqında həqiqəti bilin" adlı yaddaş kitabçaları və.s.) paylanılıb.

# Apreldən maya, maydan iyula, iyuldan sentyabra - Zəfər yoluna...

***Həmişə ermənilərdən bəhs edəndə bədnam, nankor qonşumuz kimi sözlərdən istifadə edirik. Lakin məntiqlə düşünəndə onları nə tarix, nə zaman, nə də məkan bizə qonşu edib. Onları biz özümüz-özümüzə qonşu etmişik. İnsanpərvərliyimiz, qonaqpərvərliyimiz başımızın bəlası olub. Bu köçəri şəklində yaşayan, günlərin bir günü bizə "ümid" gətirən tayfaya yazığımız gəldiyi üçün çörək, su verəndə, gecələməyə yer verəndə nə bilərdik ki, onlar bu torpaqları elə sevəcəklər ki, zaman-zaman yerləşməklə gələcək "qonşularımıza" çevriləcəklər.***







Əlbəttə, bilməzdik. Ağlımıza da gəlməzdi. Lakin ağlımıza gəlməyən başımıza gəldi. Onların Qafqazda planlı şəkildə yerləşdirilməsinə illər öncə qərar verənlərin əməlləri baş tutmuş və biz öz əlimizlə özümüzə nankor qonşular yaratmışdıq. Bu qonşuların xisləti isə özlərinə yer edəndən sonra ortaya çıxdı. Torpaq iştahası ilə yaşayan erməni tayfasının sən demə məqsədi dövlət yaratmaq, bu torpaqlara sahiblənməklə "Çəkilin, mənimdir" demək imiş. Buna nail oldular da. Ötən yüz ildə bizdən qopardıqları torpaqlardan gözləri doymadı. Nəhayət, 30 il əvvəl yeni iddialar irəli sürdülər. Onlara arxa olanlarla bizim AXCP-Müsavat cütlüyü əl, dil, iş birliyi ilə torpaqlarımızın 20 faizini də ermənilərə hədiyyə etdilər. Biz satılmış torpaqlarımız uğrunda uzun zaman döyüşdük, şəhidlərimiz, qazilərimiz oldu. Lakin torpaqlarımız da işğal olundu. Çünki onların müdafiəsi üçün dövlətimizdən kömək ala bilmədik. Onlar satdıqları torpaqlar üçün bizə yardım etməzdilər də axı...

Bu xalq torpağı namus hesab edir. Torpaqlarımız erməni işğalında qaldıqca yuxularımız şirin, başımız, qamətimiz dik ola bilməzdi. Biz özümüzdə güc hiss edən kimi o torpaqları geri almaq üçün ayağa qalxacaqdıq. 2016-cı ilin aprelində, 2018-ci ilin mayında, 2020-ci ilin iyulunda, 2020-ci ilin sentyabrında olduğu kimi. Və sən demə apreldən maya, maydan iyula, iyuldan sentyabra uzanan yolun sonunda Zəfər varmış. O Zəfər ki, itirdiyimiz generalımızla, minlərlə qurbanımız, yüzlərlə qazimizlə ona nail ola bildik.

İyul mayın, aprelin davamı idi

2020-ci ilin tarixi iyul günləri Böyük Zəfərə aparan yol idi. Bu yol öz başlanğıcını 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq dörd gün davam edən döyüşlərdən, 2018-ci il may ayının 20-dən 27-dək Naxçıvan Muxtar Respublikasında həyata keçirilən Günnüt əməliyyatından götürmüşdü. Bu yolun başlanğıcında biz artıq torpaqlarımızı işğaldan azad etməyə hazır olduğumuzu bəyan etmişdik. 30 ilin əvvəlində itirdiklərimizi 30 ilin tamamında geri almağa qalxmışdıq. İki 30 arasındakı zaman kəsiyi bu ölkəni əsarətdən müstəqilliyə, iqtisadi böhrandan inkişafa, ordu yoxluğundan ordu varlığına gətirib çıxarmışdı. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlişi ilə bütün sahələrin inkişafı üçün hazırladığı konsepsiya sonrakı illərdə uğurlu nəticələri ilə ölkəmizi dirçəltmiş, ərazi bütövlüyümüz məsələsini gündəmə gətirmişdi. Son 18 ildə ölkədə gənc nəslin vətənpərvər ruhda böyüməsi, torpaqların işğalı səbəblərinin olduğu kimi anladılması onların hər birində o ruhu formalaşdırmışdı ki, Vətən üçün bir əmr yetər.

Aprel döyüşləri Azərbaycan və Ermənistan Silahlı Qüvvələri arasında baş vermiş hərbi münaqişə, 1994-cü ildə atəşkəs haqqında imzalanan sazişdən bəri ən şiddətli döyüşlər idi. Hələ də düşüncələri 1990-cı illərdə qalan ermənilərin bu dəfə də üstünlük əldə etmə kimi yanlış fikirləri elə həmin dörd gündə alt-üst oldu. Döyüşlər Silahlı Qüvvələrimizin qələbəsi ilə nəticələndi, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində yollar düşməndən azad olundu.






Lakin düşmən düşmənliyində, tamahkar tamahkarlığında qalar, deyiblər. Erməni olasan, tamah dişini çəkib atasan, bu mümkün olan iş deyil. Həm də 1990-cı illərin havası yuxarıda da qeyd etdiyim kimi, bu tayfanı nədənsə tərk edə bilmirdi. Bu səbəbdən aradan dörd il ötəndən sonra yenidən baş qaldırdılar. Bu dəfə isə özlərinin də vurğuladıqları kimi, böyük hazırlıqla. 2020-ci ilin iyul ayının 12-də günorta saatlarından başlayaraq Ermənistan Silahlı Qüvvələri Azərbaycan Dövlət Sərhəd Xidmətinin Tovuz rayonunda yerləşən mövqelərini artilleriya qurğularından atəşə tutdular.

## İyul iddiası

Yalan ermənilər üçün yaranmış sözdür, desəm, yanılmaram. Hər dəfə bir yalanla əməllərini ört-basdır etmək istəyən düşmən iyulda da bundan istifadə etdi. Belə ki, Ermənistan Müdafiə Nazirliyinin iddiasına görə, "Azərbaycan hərbçiləri məlum olmayan səbəblərdən saat 12:30 radələrində "UAZ" markalı avtomobil ilə Ermənistanın dövlət sərhədini pozmağa cəhd göstəriblər. Ermənistan tərəfinin xəbərdarlığından sonra Azərbaycan hərbçiləri avtomobili Ermənistan mövqelərinə yaxın yerdə qoyaraq geri çəkiliblər və daha sonra saat 13:45 radələrində artilleriya atəşinə başlayıblar".

Azərbaycan tərəfi bunu inkar edərək bildirib ki, "Azərbaycan Ordusu Ermənistanın dövlət sərhədini keçmək istəsə idi, bunu avtomobillərlə deyil, zirehli maşınlarla edərdi. Həmçinin, 2018-ci ildən etibarən Qazax, Ağstafa, Tovuz, Gədəbəy və Daşkəsən rayonları ərazisində Ermənistanla dövlət sərhəddinə nəzarətin Müdafiə Nazirliyindən alınaraq Dövlət Sərhəd Xidmətinə həvalə edilməsi Azərbaycan Respublikasının Ermənistanla sərhəddə hər hansı hərbi məqsəd güdmədiyini təsdiq edir".

12 iyulda Azərbaycan tərəfi Ermənistan Silahlı Qüvvələrinə aid zirehli texnika və canlı qüvvələrin yerdəyişmələr etdiyini müşahidə etmişdi ki, bu da Ermənistan tərəfinin Azərbaycana qarşı artilleriya hücumunun əvvəlcədən planlaşdırılmasının sübutu kimi göstərilir. Döyüşlər Ermənistan Silahlı Qüvvələrinin atəşkəs rejimini pozaraq artilleriya qurğularından istifadə etməklə Ermənistan və Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini atəşə tutması ilə başladı. Silahlı Qüvvələrimizin cavab atəşi və əks-həmlə tədbirləri nəticəsində Ermənistan Silahlı Qüvvələrinin hücum cəhdinin qarşısı alındı. Döyüşün ilk saatlarında Azərbaycan Silahlı Qüvvələrinin 2 hərbi qulluqçusu şəhid oldu, 5 nəfər yaralandı, onlardan biri daha sonra aldığı yaralardan dünyasını dəyişdi. Lakin Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, döyüşlər zamanı Ermənistan Ordusunun şəxsi heyəti çoxsaylı itki vermişdi.

Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində iyulun 13-nə keçən gecə ərzində də gərginlik davam etmiş, Azərbaycan tərəfinin məlumatına görə, artilleriya, minaatan və tankların tətbiqi ilə gedən gecə döyüşlərində Azərbaycan Ordusunun dəqiq atəşi ilə qarşı tərəfin dayaq məntəqəsi, artilleriya qurğuları, hərbi hissəsi ərazisində avtomobil texnikası və canlı qüvvəsi məhv edilmişdir. Azərbaycan Müdafiə Nazirliyi düşmənə qarşı cəza tədbirləri həyata keçirildiyini, qarşı tərəfin itkiləri barədə məlumatları gizlətdiyini qeyd etmişdir.

İyulun 13-də Tovuz istiqamətində tərəflərin bir-birinə qarşılıqlı zərbələr endirməsi yenə də davam etmişdir. Ermənistan kütləvi informasiya vasitələri Ermənistan hərbi bölmələrinin Tovuz rayonunun Ağdam kəndi istiqamətində yerləşən Qaraqaya yüksəkliyini ələ keçirməsi barədə məlumat yaysalar da, Azərbaycan Müdafiə Nazirliyi yayılan məlumatları təkzib edib və heç bir ərazi itkisinin olmadığını, mövqelərin əvvəlki qaydada qaldığını bildirmişdi. Döyüş zamanı Ermənistan artilleriyası toplarla Tovuzun Dondar Quşçu və Ağdam kəndlərini də atəşə tutmuşdu.

## Unudulmaz 12 iyul

12 iyul döyüşləri yaddaşımıza həm ağır, həm də silinməz hadisə ilə həkk olundu. Həmin gün Ermənistan Silahlı Qüvvələrinin bölmələri səhər saatlarından başlayaraq Tovuz rayonunun Ağdam və Əlibəyli kəndlərini iriçaplı silahlardan və artilleriya qurğularından atəşə tutmuşdu. Erməni Ordusunun hücumu nəticəsində Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov, polkovnik İlqar Mirzəyev və həmçinin hücumun qarşısını alarkən 5 hərbi qulluqçumuz da həlak oldu. Bu döyüşlərdə yaralananlarımız da var idi. Ermənistanın artilleriya atəşləri nəticəsində Ağdam kəndinin 76 yaşlı sakini həlak olmuşdu.

Biz torpaqlarımız-namusumuz uğrunda general-mayorumuzu, palkovnikimizi itirdik. Bununla sübut etdik ki, bu ölkədə sıravi əsgərdən tutmuş general- mayoradək hər kəs ərazi bütövlüyü uğrunda canından keçməyə hazırdır. Ta ki, Vətən tam olsun. Ta ki, əzəli torpaqlarımız, ata-baba yurdlarımız düşmən tapdağı altında qalmasın.

12 iyul hər bir azərbaycanlının qəlbində bir abidə ucaltdı. Bu abidə Polad Həşimov və İlqar Mirzəyev abidəsidir. Bu abidədə iyul döyüşlərində canından keçən bütün döyüşçülər bu iki yüksək rütbəli zabitimizin ətrafında birgə ucalıblar. Bu abidə elə bir abidədir ki, əsrlər sonra da torpaqlarımızın azadlığına gedən yolda xatırlanacaqdır. Onların əziz xatirəsi hər zaman anılacaq, gələcək nəsillərə qürurla danışılacaqdır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev həmin günlər bildirdi: "Biz fəxr edirik ki, Azərbaycan xalqı, Azərbaycan torpağı belə övladlar yetişdirib".

Apreldən sentyabra-Zəfərə gedən yolda bu abidə həm də məşəl oldu. Həşimov və Mirzəyev bu məşəli əlləri ilə yandırıb bu yolu işıqlandırdılar. 44 günlük payızda əldə etdiyimiz Zəfər bu məşəllə işıqlandı, 44 günün hər bir şəhidi, qazisi bu məşəlin şölələrində əllərini isidib payızın sazağında, soyuğunda düşmənlə mübarizə apara bildilər.

Bu abidə ətrafına cəmi iki aydan sonra minlərlə şəhidi, yüzlərlə qazini topladı. Onlar abidədə dəmir yumruğa çevrildilər. Bütün dünyaya sübut etdilər ki, müzəffər Ali Baş Komandanın dəmir yumruğu ətrafında cəmlənmiş yumruqlardır. Yeri gələndə düşmənin başına çırpılmağa hazır olan bu yumruqlar bir daha torpaqlarımızın bir qarışının belə itirilməsinə imkan verməyəcəkdir.

Hər iyul bir neçə gün davam edən ağır döyüşlərin fonunda 12 iyulu daha unudulmaz edir. Qürur günü-14 iyulu.

## İyuldan sentyabra...

2016-cı ilin Aprel, 2018-ci ilin Günnüt döyüşləri qələbəsi ilə 2020-ci ilin Tovuz döyüşlərində ermənilərin gücsüzlüyünü ortaya qoydu, eləcə də Tovuz döyüşləri sentyabrda başlayacaq İkinci Vətən Müharibəsinə zəmin yaratdı. Artıq yeni torpaqlar iddiasında olan düşmənə bundan gözəl cavab ola bilməzdi. Ermənini yerində oturtmağın zamanı gəlib çıxmışdı. Onun özünü göylərdə sanan qanadlarının qırılmaq vaxtı yetişmişdi.

Aprel, may və iyul döyüşlərindən görünür ki, yetərincə dərs almayan düşmən sentyabr ayında yeni hücum əməliyyatlarına başlayanda bunu sübut etdirdi ki, bəli, o, həmin döyüşlərdən ibrət dərsi götürməyib. Belə olan təqdirdə isə onları yerlərində oturtmaqdan başqa çarə qalmadı. Sentyabrın 27-də Ali Baş Komandandan əmr alan Azərbaycan Silahlı Qüvvələri hücuma başladı. Birinci Vətən Müharibəsindən başlanan yol İkinci Vətən Müharibəsində başa çatdı. Bu yolun hər addımında maneə olan erməni cəmi 44 gün içərisində elə yerində oturduldu, elə diz çökdü ki, əsrlər sonra da özünə gələ, səsini çıxara, Azərbaycan torpaqlarına tərəf baxa bilməz.

Bəli, 44 günlük müharibə həm Birinci Vətən Müharibəsi, həm də aprel, may, iyul döyüşlərinin iştirakçılarının qisası ilə nəticələndi. Eyni zamanda minlərlə qaçqın, köçkün, didərgin adını illərlə üzərində daşıyan insanların intiqamını aldı düşməndən. Onların 30 ildə çəkdikləri torpaq həsrətinin, ata yurdu yanğısının, doğma ev-eşik nisgilinin səbəblərini cavablandırmağı tələb etdi düşməndən.

Düşmən tamahının, yalan və fırıldağının, qəddarlığının, illərdən bəri həyata keçirdiyi işğalçılıq siyasətinin, törətdiyi soyqırım və faciələrin hər birinin cavabını aldı. "Böyük Ermənistan" xülyası nəhayət ki, əsrlər sonra XXI əsrdə boşa çıxdı. Ermənistanın vətəndaşına tutduğu divan da meydana çıxdı. İnsanları zorla döyüşməyə vadar etdiklərinin, bunun üçün küçələrdən gəncləri, qadınları, qocaları zorla maşınlara yığlıb cəbhəyə göndərdiklərinin, bütün bunların isə burada yaşayanların etirazına səbəb olduğunun şahidi olsuq. Şahidi olduq ki, bu tayfa həqiqətən də yer üzündə görünməmiş vəhşi bir qəbiləymiş. 30 ildə daşı daş üstündə qoymadıqları rayonlarımızda gördük ki, onlar tək insan qatili deyil, həm də o insanların yurdlarının qatili imişlər.

Torpaqlarımız bir-bir azad olduqca, üçrəngli bayrağımız doğma torpaqlarımızda dalğalandıqca düşmənin bağrı çatladı, gözləri kor oldu. Anladı ki, yox, qarşısındakı heç də 90-cı illərdəki Azərbaycan deyil.

## Zəfərli Azərbaycan

Bəli, yazı boyu da sadaladığım kimi, biz erməni vəhşiliyinin hər üzü ilə qarşılaşmışıq. Bu qarşılaşmaların hər birinin acı nəticələrini yaşamalı olmuşuq. Bu qonşuluqdan kənar olmuşların bütün sifətlərini görmüşük. Bütün gördüklərimiz fonunda onlara məğlubiyyət necə də yaraşır. Miskinlik, baş əymək, təslim olmaq sanki onlar üçün yaranmış qumaşdır. Bundan əyinlərinə biçilən don başqa bir yaraşıq verir onlara.

Başqasının torpağına 30 il sahiblənməyin, soyub-talamağın, dağıdıb viran qoymağın son nəticəsi belə olacaqdı. Oldu da. Düşmən yerində oturduldu. Ağır insan və texnika itkisi ilə geri çəkildi. Sentyabrın 27-də başlayan müharibə noyabrın 10-da onların ağ bayraq qaldırması ilə nəticələndi.

Biz Zəfər çaldıq. Son 300 ildə torpaq mücadiləsinin tək qalibi Ali Baş Komandanımızın ətrafında sıx birləşməyimiz, həmrəylik göstərməyimizlə, gənclərimizin Vətən sevgisi, əsgərimizin döyüş ruhu, evi dağıdılmış soydaşlarımızın alınlarını belə qırışdırmamaları ilə dünyaya kimliyimizi bəyan etdik. Bəyan etdik ki, ölkəmizə yad gözlə baxanın hər birinin son aqibəti belə ola bilər. Bəyan etdik ki, bu xalq üçün torpaq namusdur, şərəfdir. Biz şərəfimizi qoruduq, torpağımızı yad əllərdən geri aldıq. Onu anası Azərbaycana qovuşdurduq.

Biz Zəfər qazandıq. 44 gün ərzində bütün şəhidlərimizin, qazilərimizin, torpaq həsrətini yaşayanların hər birinin qisasını aldıq. Bu gün Azərbaycanımız Zəfərli bir ölkədir. Biz isə onun Zəfərini dadan vətəndaşlarıyıq. Bu Zəfər xalqımızın sovet imperiyası əsarətindən sonra əldə etdiyi müstəqilliyinin dadındadır. Deməli, müstəqilliyimiz var olduqca, Zəfərimizi bizə bəxş edənlər də var olacaq. Onlar unudulmazdır, bizim qürur yerimiz, fəxrimizdirlər.

**Mətanət MƏMMƏDOVA**

# “ASAN xidmət”: 10 il vətəndaş xidmətində

***Sosial xarakter daşıyan "ASAN xidmət"in bəyanilmə əmsalı təxminən 100 faizə yaxındır. Bu, vətəndaş məmnunluğunun ifadəsidir. Azərbaycan Prezidenti İlham Əliyevin 2012-ci il 13 iyul tarixli Fərmanına əsasən yaradılan "ASAN xidmət"in coğrafi əhatəsi genişlənir, həm də funksiyaları artır. Vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azalması, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə nail olunması, şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi məqsədi ilə yaradılan "ASAN xidmət" mərkəzinin yaradılmasından 10 il ötür. Belə ki, "ASAN xidmət" mərkəzləri Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanına əsasən yaradılmışdır.***




Azərbaycan brendi olan ”ASAN xidmət” mərkəzlərinin fəaliyyətə başlaması dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşma modelidir. ”Vahid məkan” prinsipi əsasında fəaliyyət göstərən ”ASAN xidmət” mərkəzlərində vətəndaşlara xidmətin daha yaxşı göstərilməsi üçün yeni üsullardan və müasir innovasiyalardan istifadə olunur. Əlbəttə ki, yaradılan imkanların nəticəsidir ki, vətəndaş məmnunluğu yaranıb. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirib ki, bu mərkəzlərdə şəffaflığın dərəcəsi mütləqdir: ”Yəni, ”ASAN xidmət”in əsas xüsusiyyətlərindən biri də odur ki, insanları ictimai xidmətlər sahəsində rüşvətxorluqdan, korrupsiyadan qoruya bildi. İctimai xidmətlər demək olar ki, ən korrupsiyalaşmış sahələrdən biri idi. İnsanlar onlara qanun çərçivəsində təqdim ediləcək bir arayış üçün həftələrlə, bəzən aylarla qapı-qapı gəzirdilər, məmurlardan xahiş edirdilər, bir çox hallarda onlara lazım olan sənədləri rüşvət müqabilində alırdılar. Amma artıq neçə ildir ki, bu praktika Azərbaycanda tamamilə aradan qaldırılıb. Bu, bir də onu göstərir ki, harada güclü iradə var, düşünülmüş siyasət var və icraedici mexanizmlər təkmilləşib, orada həmişə nəticə də olacaq”.

## VƏTƏNDAŞLARA YÜKSƏK KEYFİYYƏTLİ XİDMƏTLƏR GÖSTƏRƏN ”ASAN XİDMƏT” MƏRKƏZLƏRİ

Bu gün artıq ”ASAN xidmət” mərkəzinin sayı artıb. 29 dekabr 2012-ci ildə Bakıda pilot layihə olaraq ilk ”ASAN xidmət” açılışı oldu. Mərkəz doqquz dövlət orqanının təklif etdiyi 23 xidməti həyata keçirilməklə 15 yanvar tarixində fəaliyyətə başladı. Həmin tarixdən vətəndaşlara yüksək keyfiyyətli xidmətlər göstərilir. Və bu günə qədər ölkəmizin bir çox yerlərində mərkəzlərin sayı durmadan artır. Xronoloji ardıcıllığı nəzər salsaq görərik ki, 3 may 2013-ci ildə ”Asan xidmət”in Sumqayıt mərkəzinin açılışı oldu. Bundan bir neçə həftə sonra, mayın 24-də Bakıda ikinci ”ASAN xidmət” mərkəzinin açılışı həyata keçirildi. Bu mərkəz iyunun 5-də vətəndaşlara xidmət göstərməyə başlayıb. 17 sentyabr 2013-cü ildə Bakıda üçüncü mərkəzin açılışı olub. 2013-cü ilin sonlarında, dekabrın 21-də Azərbaycanda sayca beşinci ”ASAN xidmət” mərkəzinin açılışı oldu. Bu mərkəz Gəncədə fəaliyyətə başladı. 23 yanvar 2014-cü ildə ”ASAN xidmət” mərkəzlərindən istifadə edən vətəndaşların sayı 1 milyona çatdı. Bakıda sayca dördüncü ”ASAN xidmət” mərkəzinin açılışı isə 2014-cü ildə mayın 7-də oldu. Həmin ilin yayında ”ASAN xidmət” səmərəli xidmət nümunəsinə və dövlət-vətəndaş münasibətlərinə verdiyi töhfələrə görə ”Uğur 2013” mükafatına layiq görüldü. 2014-cü ilin dekabr ayının 15-də Sabirabadda ”ASAN xidmət” mərkəzinin açılışı oldu. Daha sonra Bərdədə, Bakıda, Masallı və Qəbələdə, Qubada, Mingəçevirdə, İmişlidə və Şəkidə, Şamaxıda, Kürdəmir, Tovuz, Ağcabədi və Balakəndə ”Asan xidmət” mərkəzləri fəaliyyətə başladı. Ümumilikdə, ölkə üzrə 23 ”ASAN xidmət” mərkəzi fəaliyyət göstərir.

”ASAN xidmət” mərkəzlərində müxtəlif dövlət orqanlarının vətəndaşlara göstərdiyi xidmətlərdən başqa funksional yardımçı xidmətlər də təklif olunur. 2013-cü ilin iyunun 1-dən etibarən artıq ”ASAN xidmət”in təklif etdiyi xidmətlərdən istifadə etmək üçün mərkəzlərə gələ bilməyən vətəndaşlara xidmət göstərmək üçün zəruri müasir texnoloji avadanlıqlarla təchiz olunmuş səyyar avtobuslardan istifadə olunur. Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin tapşırığı əsasında ”ASAN xidmət” mərkəzlərinin olmadığı regionlarda vətəndaşların dövlət xidmətləri ilə təmin edilməsi üçün müasir texniki avadanlıqla təchiz olunmuş səyyar ”ASAN qatar” konsepsiyası da reallaşdırılıb. Bütün bunlar vətəndaşların rahatlığının təminatında, onlara şəffaf və nəzakətli xidmətin göstərilməsinin əsas faktorlarıdır. Dövlət başçısının 2016-cı ilin mayında imzaladığı Fərmanla ”ASAN kommunal” mərkəzlərinin yaradılması Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə tapşırılmışdı və qısa müddətdə ”ASAN kommunal” xidmətinin yaradılması üçün aidiyyəti qurumlarla bir yerdə tədbirlər həyata keçirildi. ”ASAN Kommunal” mərkəzlərində Azəriqaz, Azərsu, Azərişıq şirkətlərinin 45 növ kommunal xidmətləri göstərilir.

## GÖRÜLƏN İŞLƏRƏ VERİLƏN QİYMƏT

Azərbaycan brendi olan ”ASAN xidmət” mərkəzləri beynəlxalq mükafatlara layiq görülüb. Bu gün ”ASAN xidmət”in fəaliyyəti Avropa İttifaqında, Avropa Parlamentində, Böyük Britaniya parlamentində, Fransa, Almaniya və digər ölkələrdə yüksək qiymətləndirilir. Özünəməxsus hüquqi strukturu olan bu model bir çox beynəlxalq qurumlar və ekspertlər tərəfindən təqdirəlayiq hesab olunur. Artıq Azərbaycanın ”ASAN xidmət” modeli əsasında Əfqanıstanda dövlət xidmətlərinin göstərilməsi sahəsində eyniadlı qurum təsis edilib. Bundan başqa, İtaliya, Koreya Respublikası, Fransa, İndoneziya, Monteneqro və ISESCO təşkilatı ilə əməkdaşlığa dair Anlaşma memorandumları imzalanıb.

Bu illər ərzində xidmət bir neçə beynəlxalq dərəcəli sertifikata layiq görülüb, Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən beynəlxalq müsabiqənin qalibi olub. Cənab İlham Əliyevin vurğuladığı kimi, beynəlxalq təşkilatlar ”ASAN xidmət”in fəaliyyətini yüksək qiymətləndirirlər: ”BMT ”ASAN”ı fərqləndirib, mükafat verib. Bu da əlbəttə ki, görülən işlərin nəticəsidir”. ”Uğur 2013” ”səmərəli xidmət nümunəsinə və dövlət-vətəndaş münasibətlərinə verdiyi töhfələrə görə” nominasiyasının qalibi olub. İSO 9001:2008 idarəetmə standartı üzrə beynəlxalq sertifikatı alıb. ”ASAN xidmət” 2015-ci il BMT-nin ”Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi” kateqoriyasında birinci yerə layiq görülərək xüsusi mükafat və diplomla təltif edilib. Dövlət Agentliyi ilə ISESCO arasında imzalanan Birgə Əməkdaşlıq Proqramına əsasən qabaqcıl idarəetmə üzrə ”ISESCO-nun ASAN mükafatı” təsis olunub. Bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycan brendi olan ”ASAN xidmət”ə dünyada böyük maraq var.

## ”ASAN XİDMƏT” KİMİ, DOST MƏRKƏZLƏRİ DƏ BÜTÜN ÖLKƏMİZİ ƏHATƏ EDƏCƏK”

”ASAN xidmət” öz fəaliyyətini genişləndirir, həm coğrafi əhatə, həm də xidmətlərin sayı artır”. Bu fikirləri Azərbaycan Prezidenti Cənab İlham Əliyev bildirib. Dövlət başçısı qeyd edib ki, hər kəs görür ki, bu, hansısa bir fərdi layihə deyil, bu, yanaşma tərzidir, bu, düşüncə tərzidir, bu, bizim siyasətimizdir: ”ASAN”da olan şəffaflıq, mədəniyyət hər yerdə tətbiq edilməlidir. Yəni, ”ASAN xidmət” bir çox sahələr üçün nümunə olub. Təsadüfi deyil ki, indi sosial təminat sahəsində də buna oxşar layihə həyata keçirilir - DOST mərkəzləri fəaliyyətə başlayır və ”ASAN xidmət” kimi, DOST mərkəzləri də bütün ölkəmizi əhatə edəcək. ”ASAN xidmət” mərkəzlərinin yaradılması ilə bağlı kifayət qədər geniş proqramımız var”. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü və Prezident İlham Əliyevin 2018-ci ildə imzaladığı Fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan DOST Mərkəzlərində əhaliyə pensiya, sosial sığorta, sosial müavinət, əlillik, əmək və məşğulluq, övladlığa götürmə, bank, notariat, həmçinin Tibbi Sosial Ekspertiza sahələri üzrə 100-dən artıq xidmət göstərilir. 4 Saylı ”DOST” Mərkəzinin tərkibindəki ”Çağrı Mərkəzi” ölkə üzrə gündəlik 5 minədək zəng qəbuluna şərait yaradır. Bütün bunlar dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulmasını özündə ehtiva edir.

## ”DOST MƏRKƏZLƏRİNİN FƏALİYYƏTƏ BAŞLAMASI SOSİAL SAHƏDƏ GÖRÜLƏN İŞLƏRİN, APARILAN İSLAHATLARIN ƏYANİ TƏZAHÜRÜDÜR”

Dövlət başçısının bildirdiyi kimi, ”Azərbaycan bu sahədə də liderlik göstərir və DOST mərkəzlərinin fəaliyyətə başlaması sosial sahədə görülən işlərin, aparılan islahatların əyani təzahürüdür”. Azərbaycanda əhalinin sosial-rifah halının yüksəldilməsi, sosial məsələlərin həlli, həssas qrupların hərtərəfli dövlət qayğısı ilə əhatə olunması istiqamətində görülən işlər Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Təsadüfi deyil ki, bu istiqamətdə həyata keçirilən tədbirlər ölkəmizdə etibarlı sosial müdafiə sisteminin formalaşmasına imkan yaradıb. 2019-2025-ci illərdə istifadəyə verilməsi nəzərdə tutan DOST mərkəzlərinin 5-i Bakıda, 26-sı isə regionlarda olacaq. Ümumilikdə DOST mərkəzlərində ”bir pəncərə” prinsipi ilə 2,8 milyon insana 132 xidmət göstəriləcək. Bu, ”DOST” mərkəzlərinin ölkəmizin dövlət sosial xidmətləri sahəsində ”ASAN xidmət”dən sonra Azərbaycanın yeni brendinə çevriləcəyini deməyə əsas verir. DOST layihəsi, artıq özünün dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında, tam şəffaf mexanizmlər üzərində qurulması ilə ölkəmizin bu sahədə yeni brendini formalaşdırıb. Cənab İlham Əliyevin vurğuladığı kimi, DOST mərkəzlərinin yaradılması sosial siyasətimizin mahiyyətini göstərir. Bu mərkəzlərin fəaliyyəti həm insanlara rahatlıq verir, həm də şəffaflıq istiqamətində önəmli addımlar atılıb. Bu gün Azərbaycan təcrübəsi dünya ölkələrində öyrənilir. Dövlət başçısının vurğuladığı kimi, artıq ”ASAN xidmət” ”ASAN” adı altında başqa ölkələrdə də fəaliyyət göstərməyə başlayıb: ”Bu, bizim şərtimiz idi, çünki bu, bizim brendimiz, bizim intellektual məhsulumuzdur. Əlbəttə, biz öz təcrübəmizi istənilən ölkə ilə bölüşməyə hazırıq və bunu edirik. Əlbəttə, sevinirik ki, digər ölkələr də bizim təcrübəmizdən istifadə edirlər”. Əlbəttə ki, dövlətimiz tərəfindən bütün görülən işlərin arxasında insanlara daha da keyfiyyətli xidmətin göstərilməsi dayanır.

## GÖRÜLƏN İŞLƏRİN ƏSASINDA DÖVLƏT MARAQLARI, ÖLKƏNİN İNKİŞAFI, TƏHLÜKƏSİZLİYİNİN VƏ XALQIN FİRAVAN HƏYATININ TƏMİN EDİLMƏSİ DAYANIR

Bildiyimiz kimi, cari ilin mayın 28-də Bakıda 7 saylı ”ASAN xidmət” mərkəzinin və ”Bilim Bakı mərkəzinin açılışı oldu. Paytaxtda tikilmiş yeni ”ASAN Həyat” Kompleksi üç hissədən ibarətdir. Kompleksdə 7 saylı Bakı ”ASAN xidmət” mərkəzi və ”INNOLAND”, ”Bilim Bakı” mərkəzi və ASAN İnnovativ İnkişaf Mərkəzi, həmçinin Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Aparatının yeni inzibati binası yerləşir. Kompleksin üçüncü hissəsi cari ilin sonunadək hazır olacaq. Prezidentin gördüyü bütün işlərin əsasında Azərbaycanın dövlət maraqları, ölkənin inkişafı, təhlükəsizliyinin və xalqın firavan həyatının təmin edilməsi amili dayanır. Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın, regionun aparıcı dövlətlərindən birinə çevrilməsi, ölkəmizin dünya miqyasında nüfuzunun artması, yüksək səviyyəli beynəlxalq tədbirlərin mərkəzinə çevrilməsi, şəhər və regionlarımızın simasının gözəlləşməsi, eləcə də, insanların maddi və mənəvi rifah halının yaxşılaşdırılmasında öz əksini tapıb.

***Zümrüd BAYRAMOVA***

*Rusiya və Qərb arasında mübarizə yenicə yaranmayıb, hər zaman olub və bu gün də davam edir. Ümumiyyətlə, qütbləşmənin tarixi kökləri dərindir və nəzərə almaq lazımdır ki, hətta SSRİ-nin mövcud olduğu dövrdə belə bu toqquşma var idi. Belə demək mümkünsə, həmin zamanlarda bu toqquşmalar sanki formasiyaların mübarizəsi kimi görünürdü, amma artıq tam aydın, eləcə də çılpaq şəkildə, özü də müharibə fonunda özünü büruzə verir.*

# Qərblə Rusiya toqquşmasında MARAQLI TƏRƏFLƏR



Etiraf olunmalıdır ki, ABŞ da, Avropa İttifaqı da, Rusiya da nəhəng güclərdir və bütün dünya bu həqiqəti qəbul edir. Onu da qəbul edir ki, ilk növbədə mübarizənin kökündə siyasi və iqtisadi hegomonluq niyyəti dayanır. Qərb də öz hegomonluğunu görmək və göstərmək istəyir, Rusiya da. Hər zaman da belə olub və tərəflər bir-birinə öz gücünü daim göstərib. Doğrudur, müharibə formasında olmasa belə mübarizənin olduğu bəlli olub. Sözsüz ki, hətta tarixin müəyyən dövrlərində bu qütbləşmənin açıq qarşıdurmaya da çevrildiyinin bütün bəşəriyyət şahididir.

Bu ilin, 2022-ci ilin əvvəlində, daha dəqiq desək, 24 fevral tarixində Rusiya ilə Ukrayna arasında başlayan genişmiqyaslı xüsusi əməliyyatlar həm dünya düzənini dəyişdi, həm də Qərblə Rusiya arasındakı mübarizənin olduğunu açıq-aydın şəkildə isbatladı. Müharibə iki ölkə arasında olsa da kənar qüvvələrin təsirləri də aşkar şəkildə üzdədir və hələ də qalib tərəfin hansı olduğunu söyləmək mümkün deyil. Rusiya tərəfi qələbə qazanacağı iddiasında olsa da, itgilər kifaət qədər olsa da, hər iki tərəfin sonadək vuruşmağı hədəflədiyi görünür. Bu isə səbəbsiz deyil, çünki Rusiya bu müharibədə məğlubiyyətini təsəvvür belə etmək istəmir, Ukrayna isə Qərbin dəstəyinin hər zaman olacağına əmindir, baxmayaraq ki, hərdən bu dəstəyin azalmasından gileylənir. Müharibənin bu qədər uzanmasının da əsl səbəbi elə bundadır və hərbi əməliyyatların dayandırılması məhz bu səbəbdən, Qərbin dəstəyi səbəbindən ləngiyir. Heç şübhəsiz ki, müharibənin ləngiməsinə səbəb olan dəstək də, yardımlar da səbəbsiz deyil və kərar qüvvələrin maraqlı olduğu barədə nəticəyə gəlməyə əsas verir.

Qərb ölkələrinin Ukraynanı dəstəkləməsi, hətta bir sıra yardımlar etməsi, Rusiyaya qarşı sanksiyaların tətbiqi təsdiq edir ki, Rusiya ilə Ukrayna arasında toqquşmanın baş verməsi kimlər üçünsə böyük maraq kəsb edir. İlk növbədə onu nəzərə almaq lazımdır ki, Rusiya bütün dünyada kifayət qədər güc sahibir və Qərbin hansısa yolla, yaxud, belə demək mümkünsə, hansısa bəhanə ilə Rusiyaya qarşı sanksiyalar tətbiq etmələ, təzyiqlərlə bu ölkənin iqtisadiyyatını sarsıtmağa maraqlı olduğu təkzib edilə bilməz. Təbii ki, belə bir maraq Qərbdə hər zaman olub və bu heç də yenilik deyil, sadəcə Rusiya-Ukrayna toqquşması, aylarla davam edən müharibə bu istiqamətdə marağın bir qədər də artığını üzə çıxarır.

Rusiya-Ukrayna müharibəsindən, eləcə də Qərbin müdaxiləsi, xüsusən də Rusiyaya qarşı sanksiyalar tətbiq edilməsinə görə qazanc əldə edən ölkələr də kifayət qədərdir. Bilirik ki, Rusiya eyni zamanda neft və qaz ixrac edən ölkədir və bu ölkənin sanksiyalarla qarşılaşması bu müstəvidə də həmin ölkəyə təsirsiz ötüşmür. Yəni, Rusiya həmin təbii sərvətlərin ixracı məsələsində böyük maneələrlə qarşılaşır və bu məqam da neft, eləcə də qaz tədarük edən üçün əlverişli şərait hesab olunur. Belə ki, neft və qaz tədarük edən ölkələr sanksiyalardan istifadə edərək, Rusiyanın dünya bazarındakı yerini tutmağa çalışırlar. Üstəlik, onlar bunu ucuz neft və qaz dövrünün sonu kimi dəyərləndirirlər. Bir sözlə, iqtisadi maraqlar burada dərhal özünü göstərir və əlbəttə ki, bu mənada da Rusiya ilə Ukrayna arasında gedən mübarizənin, müharibənin uzanması kimlər üçünsə sərfəli məqam kimi qiymətləndirilir. Göründüyü kimi, arzuolunmaz və gözlənilməz nəticələr yaradan iqtisadi məhdudlaşdırıcı tədbirlər ABŞ üçün bir alətə çevrilib və bu da bir çoxlarını belə qane edir.

Sanksiyaların Rusiya iqtisadiyyatına necə təsir etdiyini və yaxın gələcəkdə nələrin baş verəcəyini təhlil edən Avropa Birliyinin Xarici Əlaqələr üzrə Ali nümayəndəsi Josep Borrell öz məqaləsində bir çox məqamlara toxunub və onun fikirləri bəzi məsələlərə xüsusi aydınlıq gətirir. "Artıq Vladimir Putinə və onun tərəfdaşlarına sərt zərbələr endirilir, zaman keçdikcə bu sanksiyaların Rusiya iqtisadiyyatına təsiri artacaq", deyən Avropa Birliyinin Xarici Əlaqələr üzrə Ali nümayəndəsinin fikirləri təsdiq edir ki, təbii ehtiyatların ixracı məsələsində xüsusi maraq var. Josep Borrell əminliklə yazır ki, 2022-ci ilin sonuna kimi Avropa Birliyi Rusiyadan neft idxalatını 90 faiz azaldacaq. O, hətta qeyd edir ki, bütün bu hadisələrin nəticəsi olaraq, iyun ayında, tarixdə ilk dəfə ABŞ Avropaya qaz ixracatında Rusiyanı üstələyib. Bununla həm Rusiyanın bir ixracatçı kimi o qədər də vacib ölkə olmadığını göstərmək istəyən Josep Borrel, eyni zamanda ixracatda Rusiyanı geridə qoyduqlarını diqqətə çatdırır. Bu isə onu deməyə əsas verir ki, Rusiya ümumiyyətlə, Avropanın enerji bazarından uzaqlaşdırılır və onun yeri məmnuniyyətlə tutulur. Bu yeri tutanın da ABŞ olduğu bəllidir. Bir sözlə, ABŞ Rusiyanın itirdiyi yeri qazanır və qısa desək, Rusiya itirir, ABŞ isə qazanır, burada iqtisadi maraqlar var.

Eyni zamanda, Qərb Ukraynaya yardımlar etməklə, bu ölkənin tərəfində olmaqla, həm də bəyan etmək istəyir ki, Ukraynanın mühafizəsi, qorunması ondan asılıdır. Bir sözlə, dolayısı ilə bu müharibədə Qərb özünü göstərməyə, eləcə də onunla hesablaşmağın vacibliyini bəyan etməyə bir imkan əldə edib və bunu edir də. Qərbin belə bir xatırlatmasının Rusiya tərəfinə çatdırılması üçün də əlbəttə ki, müharibə lazım gəlirdi və bu məqam da məhz maraqlara aiddir. Digər tərəfdən, Qərb öz yardımları, tərəf tutmağı, eləcə də Rusiyaya qarşı sanksiyaları ilə Ukraynanı qoruduğunu həmin ölkəyə çatdıraraq, özünə bağlamağa çalışır və Rusiyaya qarşı onunla birləşmək niyyəti də, marağı da ortadadır.

Doğrudur, Ukraynanı dəstəkləsə də, yardımlar göstərsə də, Qərb Rusiya ilə açıq və birmənalı toqquşmadan hər zaman yayınıb və indi də hər addımda yayınmaqdadır. Hərhansı yardımın göstərilməsi fonunda Qərb münaqişədə birbaşa iştirakçı olmadığını göstərməyə çalışır. Hətta birbaşa iştirakdan çəkinir də. "Amerikalı əsgər Ukraynada rus ordusuna qarşı döyüşməyəcək", deyən Ağ Ev rəhbəri Co Bayden bunu hələ müharibə yenicə başlayan zaman bəyan etmişdi. Oxşar bəyanatla çıxış edən NATO baş katibi Yens Stoltenberq də münaqişədə tərəf olmadığını bildirmişdi və bütün bunlar öncə sadalananları təsdiq edir. Təsdiq edir ki, Qərb müharibədə tərəf olmaqdan çəkinir, amma bununla belə yardımları dayandırmır, Ukrayna tərəfini dəstəkləyir və bir sözlə, müharibənin uzanmasına, hərbi əməliyyatların dayandırılmasının ləngidilməsinə rəvac verir. Elə isə bu məqamda Qərbin maraqlarının olduğu bir daha öz təsdiqini tapır və maraqlar içərisində Rusiyanı çökdürmək niyyəti şübhəsiz ki, ön planda durur.

Almaniyanın Elmau şəhərində keçirilən "Böyük yeddilər"in sammitinin iştirakçıları Rusiyanın Ukraynaya raket hücumunu pisləyən bəyanat yayıblar. Avropa Komissiyasının sədri Ursula fon der Leyenin yaydığı bəyanatda G7 liderləri Kremençuq ticarət mərkəzində həlak olanlara və həlak olanların ailələrinə başsağlığı veriblər. G7 Rusiyanın hərəkətlərini pisləyib və bu faktları müharibə cinayəti kimi tanıyıb. Bəyanatda o da deyilir ki, bu vəhşilikdə əli olan hər kəs və şəxsən Rusiya prezidenti Putin cavab verməlidir. Qeyd edək ki, sözügedən sammitdə ABŞ prezidenti Co Bayden, Fransa prezidenti Emmanuel Makron, Böyük Britaniyanın baş naziri Boris Conson, Kanadanın baş naziri Castin Trüdo, İtaliyanın baş naziri Mario Draqi, Yaponiyanın baş naziri Fumio Kişida və Almaniya kansleri Olaf Şoltsla yanaşı, Avropa Birliyinin rəhbərləri də iştirak ediblər. Ukraynaya maliyyə, humanitar, hərbi və diplomatik dəstək verməyə davam edəcəyini açıqlayan G7 liderləri Ukraynanın yanında olacaqlarını da qeyd ediblər və bəyan ediblər ki, onlar Ukrayna ilə həmrəyliyə, Ukrayna hökumətini və xalqını öz ölkələrinin suverenliyini və ərazi bütövlüyünü cəsarətlə müdafiə etmək, dinc, firavan və demokratik gələcək uğrunda mübarizələrində dəstək verməklə bağlı öhdəliyə sadiqdirlər. "Biz Rusiyanı məsuliyyətli davranmağa, təmkinli olmağa çağırırıq və bir daha bildiririk ki, bu cür silahlardan istənilən istifadə qəbuledilməzdir və ölkə ağır nəticələrlə üzləşəcək", deyə bəyan edən G7 liderləri Moskvanı öz beynəlxalq öhdəliklərinə, o cümlədən, kimyəvi, bioloji və nüvə silahlarının istifadəsini qadağan edən öhdəliklərə əməl etməyə çağırıblar və Rusiyanı nüvə ritorikasından əsassız istifadə etməkdə ittiham ediblər. Onlar Rusiyanın gəlirlərinin azaldılması istiqamətində fəaliyyətlərini davam etdirmək haqqında da razılığa gəliblər. Açıq-aşkar görünür ki, G7 liderlərinin Almaniyanın Elmau şəhərində keçirilən sammitinin əsas gündəmini Rusiya ilə Ukrayna arasındakı müharibə, bu müharibənin doğurduğu nəticələr, eləcə də Moskvaya qarşı tətbiq edilməli olan siyasət mövzusu təşkil edib. Sammit iştirakçıları şəkil çəkdirdikləri zaman belə mövzu Rusiya prezidenti olub və G7 liderlərinin, xüsusilə Böyük Britaniyanın baş naziri Boris Conson və Kanadanın baş naziri Castin Trüdonun Rusiya prezidentini, yəni Vladimir Putini məsxərəyə, lağa qoyması bunu təsdiq edir. Bütün bunlar onu deməyə əsas verir ki, məsələ qlobal müstəvidə daha ciddidir və Rusiyanın qlobal iqtisadiyyatdan kənarlaşdırılması üçün onlar əllərindən gələni edəcəklər və bu proses hələ davam edəcək.

G7 liderləri həmçinin, Rusiyaya qarşı sanksiyalarının şərtlərinin icrasından yayınmağa çalışan Qərbdəki siyasi qüvvələrə və şirkətlərə qarşı mübarizəni davam etdirəcəyini vəd ediblər. Deməli, burada Rusiyaya tərəf olan dövlətlər də, hətta tərəfsiz olanlar da hədəfdədir. Ümumiyyətlə, tərəfsiz mövqe tutan dövlətlərin Rusiya-Qərb toqquşmasından artıq zərər çəkdiyi də bir reallıqdır. Bu məsələdə ölkəmizin nə kimi, hansı təsirlərə məruz qalıb-qalmayacağı da hər birimizi dərhal düşündürür. Məsələ burasındadır ki, Azərbaycanın qlobal qütbləşmə zamanında ən doğru, ən uğurlu yol tutduğu göz önündədir və bu o deməkdir ki, biz hədəf deyilik. Ölkə rəhbərinin, cənab Prezident İlham Əliyevin müdrik siyasəti, uzaqgörənliyi sayəsində Azərbaycan sözsüz ki, Rusiya-Qərb toqquşmasında təhlükəsiz bir mövqedədir. Hətta ölkəmiz elə reallıqlar yaradıb ki, istəq Qərb, istərsə də Rusiya bununla həm barışmalı olub, həm də bu reallıqları dəstəkləyir, çünki Azərbaycan ümumilikdə Cənubi Qafqazda sülh və təhlükəsizliyin təminatçısı olaraq çıxış edir. Bu isə təbii ki, heç bir tərəf üçün qəbuledilməz hesab oluna bilməz və sülh, sabitlik kimi məqamlar, ümumbəşəri dəyərlərin qorunması hər zaman prioritet olub. Bununla yanaşı, Azərbaycan öz haqq işi, ədalətli mübarizəsi, beynəlxalq hüququn tələblərinin yerinə yetirilməsi, ümumiyyətlə, tarixi ədalətin vərpası uğrunda 44 günlük müharibədə qazandığı Zəfər sayəsində qüdrətli, güclü dövlət olduğunu bir daha isbatlayıb və artıq qlobal miqyasda hesablaşılan dövlət olaraq qəbul edilir. Ölkəmiz Avropa İttifaqının timsalında beynəlxalq təşkilatlarla yüksək səviyyəli münasibətlər qurub və bu münasibətlər uğurla davam etdirilir. Böyük Britaniyanın əsaslı ticari tərəfdaşlarından, ABŞ-ın təhlükəsizlik və terrorizmlə mübarizə sahəsində qlobal müttəfiqlərindən olan Azərbaycanın eyni zamanda, Rusiya ilə də strateji müttəfiqlik müqaviləsi var. Dünyanın sayılıb-seçilən, hesablaşılan hərbi güclərindən biri olan Türkiyə ilə Şuşa bəyannaməsinin imzalanması da o deməkdir ki, Azərbaycan qardaş ölkə ilə gücünü birləşdirib və bütün bunlar ölkəmizin hazırkı çox həssas dönəmdə, qütbləşmə prosesində sağlam bir mövqedə qərarlaşması, təhdidlərdən kənar, müstəqil güc kimi inkişaf yoluna davam etməsi deməkdir. Sözsüz ki, ölkəmiz üçün ən ideal vəziyyət hesab olunan mövcud hal Azərbaycan Prezidentinin, cənab İlham Əliyevin apardığı müdrik siyasət sayəsində reallaşıb. Azərbaycan öz uğurlu inkişaf yolundadır və ölkə rəhbərimiz tərəfindən aparılan düzgün, müdrik siyasət sayəsində heç bir mübarizə, yaxud müharibə ölkəmizin təhlükəsizliyinə, sabitliyinə, inkişafına manеə, yaxud təhdid hesab olunmur.

***İnam Hacıyev***

***İlk növbədə təbii ki, bilik əldə etmək, fikir tapmaq üçün kitab oxunur, amma onu da qeyd etmək lazımdır ki, kitab dünyagörüşü, dəyərləri, inancları, şəxsi fəlsəfəni formalaşdırır və bütün bunlar, şübhəsiz ki, ümumilikdə həyat səviyyəsinə təsir göstərir.***



# Niyə kitab oxumaq lazımdır?

ARAŞDIRMA

Əlavə olaraq insanların böyük təcrübəsi və biliyi, çoxlu ideyalar, texnikalar, strategiyalar tapmaq olur.

Düzgün kitabları seçib oxumaqla insanda tədricən dünyagörüş formalaşır, dünyaya baxışı,



əqidəsi genişlənir və dərinləşir. Kitablar təfəkkür, təxəyyül, düşün-



mə və düşünmə qabiliyyətini inkişaf etdirir.

Mütaliə etmək bir çox suallara cavab tapmağa imkan verir, çünki hər şey çoxdan məlumdur, minlərlə insan artıq öz həyatını yaşayıb və öz təcrübələrini bütün bəşəriyyətlə bölüşüb. Kitablar insanları ilhamlandırır və təkmilləşdirmək, böyük nəticələr əldə etmək həmçinin problemin həllini tapmağa kömək edir. Əlbəttə, hamımız bilirik ki, müasir dünyamızda informasiya həlledici rol oynayır, informasiya axınları bizi hər yerdə əhatə edir və insan istər-istəməz beyninə hansı məlumatı daxil etmək seçimi ilə üzləşir.

Sovet dövründə insanlar kitaba tələsir, oxumaq üçün senssasiyalı kitab və ya jurnal almaq üçün kitabxanalarda növbələr yaranırdı. İndi dünya informasiya bolluğu ilə üzləşib və eyni zamanda kitab oxumağa marağı itir.

Ümumi dünya yeniyetmələrin üçdə biri artıq zövq üçün kitab oxumur. 2016-cı ildə 10-cu sinif şagirdlərinin yalnız 2%-i demək olar ki, hər gün qəzet oxuduğunu, 11 -ci sinif şagirdlərinin isə yalnız 16%-i demək olar ki, hər gün kitab oxuduğunu bildirib. Zövq üçün oxumayan 11 -ci sinif şagirdlərinin sayı 1970-ci illərdən bəri üç dəfə artıb. Televiziya və kino istehlakı da azalır. 2016-cı ildə səkkizinci sinif şagirdlərinin 13%-i beş və ya daha çox saat televizora baxırdısa, 90-cı illərdə bu rəqəm 22% idi. Lakin 54% smartfonlarla çox vaxt keçirdiklərindən qorxurlar. Aparılan müşahidələr qızların sosial mediada, oğlanların isə video oyunlarda çox vaxt sərf etdiklərini ortaya çıxardır. İnsana başqa məlumat da ona görə lazım görmür ki, o, artıq öz virtual aləmində yaşayır və xarici problemlər onun üçün o qədər də maraqlı deyil.

Şəxsiyyət olaraq insanın formalaşıb kamilləşməsində, mənəvi aləminin zənginləşməsində, dünyagörüşünün və bilik dairəsinin genişlənməsində, cəmiyyət hadisələrinə çevik, həssas və obyektiv münasibət bəsləməsində, bədii təxəyyülünün, obrazlı və məntiqi təfəkkürünün, idraki bacarıqlarının inkişafında, bir çox hallarda isə həyat yolunun müəyyənləşməsində və vətəndaş tərbiyəsində mütaliənin rolu müstəsna əhəmiyyət kəsb edir.

Bəs mütaliəyə, kitab oxumasına ehtiyac duyulduğu halda nəyə görə bir çox kitab məkanları öz fəaliyyətlərini dayandırır? Bir müddət öncə bütün kitabsevənlərin sevimli ocağı olan ”Kitab.az” məkanın bağlanmağının şahidi olduq. İndi isə kitab xəzisi kimi tanınan ”Xan xəzinəsi” kitab evinin fəaliyyətinin dayandıracağını təssüf hissi ilə qeyd edirik.





## Bəs ordakı minlərlə kitab necə olacaq? Hara gedəcək?

Məkanda kitab satışı ilə məşğul olan Xan Rəsuloğlu suallarımızı cavablandırıb. Açıq danışaq. Azərbaycanda orta təbəqə biznesi ən ağır şərtlərlə və şəraitdə işləyir, üstəlik də kitaba qarşı, bir az da yeni info texnologiyaların ucbatından kütləvi laqeydlik var. Bakıdakı ”Xan Xəzinəsi” kitab evini işlətdiyim 9 iləcən vaxt ərzində baş verən sosial-siyasi və maliyyə böhranları da öz sözünü dedi. Bu dükana aylıq xərcim (kirayə, icarə müqaviləsi, vergi, sosial, kommunal, yol xərci, işçinin maaşı) 900 manat civarında idi ki, bu müddətdə də, heç vaxt ziyansız işləmədim.Özümə təsəllim bu olurdu ki, kitabsevərlərin qulluğunda durmaqla mən də bir cürə xidmət edirəm, yeri anbar və ofis kimi də işlədirəm və yeni dostlar qazanır, Azərbaycanın kitab dünyasına-mühitinə də bir az yaxın oluram.

Sonuncu sahib də, ”məkanı təmir edirik” adıyla, bizə çıxmamızı söylədi. Təmirdən sonra qayıda bilmək şansımızı isə qəbul etmədilər-özləri işlətmək istəyirlər yəqin, bu da onların haqqıdır. Nə deyə bilərəm ki?

Məkanı bağlayacağımızı eşidəndən 200-dək adam zəng edib, bu xəbərə üzüldüklərini söyləyir. Yeni yerimizin bir müddət olmayacağına da, eyni reaksiya verirlər.

## Bəs ordakı minlərlə kitab necə olacaq?

Kitabları, hələ ki, bir anbara yığıb, çeşidləmək fikrindəyəm. Gəlib çox ucuzuna alıb aparanlar da var. 4-5 mindən çoxunu dükanın önündə daş üstünə qoymuşuq. Hələlik, Sumqayıtdakı dükanımızda işimizi davam etdirəcəyik. Sonrasını, zaman göstərər. Yəni, hələ ki, yaşayırıqsa, kitablayıq, qulluğunuzdayıq. Boşuna deyilməyib ki, kitab bilik mənbəyidir və məlum həqiqətdir ki, bilənlə bilməyənlər arasında nə qədər fərq olur. İnsanlar biliyi və informasiyanı müxtəlif mənbələrdən alsalar da, hələ ki, məncə, kitabın yerini heç nə verməz.

İndi sovet dövründəki kimi, kütləvi savadlandırma getmir-təhsilin keyfiyyəti də aşağıdır. Amma özünü sənətə, elmə həsr eləmək istəyənlərin inadkarlığı, qətiyyəti əvvəlki illərdəkindən heç də az deyil.

”Xan Xəzinəsi” Kitab Evi haqda dövri mətbuatda çoxlu yazılar gedib. Düşünürəm ki, imkansızlıq mühitində imkanımızca xidmətimizi göstərdik.

***Havar Şəfiyeva***

# Şəhidlər ölməz, Vətən bölünməz!

## Ağdam rayonunda şəhid ailələri və qazilər ziyarət olunub





Müqəddəs Qurban bayramı günlərində Ağdam rayonunda şəhid ailələri və qazilər ziyarət olunub. Ağdam rayon icra hakimiyyəti və Yeni Azərbaycan Partiyası Ağdam rayon təşkilatının birgə təşkilatçılığı ilə müqəddəs Qurban bayramı münasibətilə Heydər Əliyev Fondu tərəfindən göndərilən bağlamalar Şəhid ailələri və Qazilərə təqdim olunmuşdur. Ağdam rayon icra hakimiyyəti başçısının müavini Xəqani Nəzərov, Yeni Azərbaycan Partiyası Ağdam rayon təşkilatının sədri Mansur Quliyev və Ağdam rayon icra hakimiyyətinin başçısı aparatının Vətən müharibəsi iştirakçıları və Şəhid Ailələri ilə İşin Təşkili şöbəsinin müdiri Samir Məmmədov rayon ərazisində yaşayan şəhid ailələrinin və qazilərin evlərinə gedərək, onları Qurban bayramı münasibətilə təbrik etmiş, qayğıları və problemləri ilə maraqlanmışlar. Şəhid ailələri və qazilər də onlara dövlət səviyyəsində hər zaman böyük diqqət və qayğının göstərildiyini qeyd edərək, buna görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

**_Zümrüd BAYRAMOVA_**

## YAP Masallı rayon təşkilatının əməkdaşları şəhid ailələrini ziyarət ediblər






Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı, "Viləş" körpələr evi-uşaq bağçası və partiya fəallarının birgə təşəbbüsü ilə Qurban bayramı ilə əlaqədar Vətən müharibəsi Şəhidləri Həsənov Sübhan Rauf oğlu, Nefesov Murad Ocaqdurdu oğlu, Qasımov Cəbrail Baloğlan oğlu, Bağırov Namiq Nurəddin oğlu, Şahbazov Kənan Natiq oğlu, Əzizov Elvin Əfrail oğlu Akifzadə Elmir Gündüz oğlu, Nüsrətbəyli Ülvi Arif oğlu və vətən müharibəsi qaziləri Qurbanov Nuru Şahin oğlu, Kərimov Ülvi Əkrəm oğlu, Mehtiyev Ülvi Nizami oğlu, Xəlilli Kamran Nazir oğlu, Qəzənfərli Talıb Cəmil oğlu, Bağırov Kəmaləddin Miri oğlu və Abbasov Nurlan Həsənəli oğlunun ailələrinə baş çəkmiş, Qurban bayram münasibəti ilə təbrik etmiş, onlara bayram sovqatı təqdim etmiş, və qayğıları ilə maraqlanmışlar.Yeni Azərbaycan Partiyas Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev Şəhidlərin əziz xatirəsini ehtiramla yad edib, barələrində xoş təəssüratlarını bölüşüb, qazilərə Allahdan şəfa diləyib.

Seyfəddin Əliyev qeyd edib ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsini və adını uca tutmaq, əbədiləşdirmək, onların yaxınlarına, doğmalarına, ailə üzvlərinə diqqət və qayğı göstərmək hər birimizin vətəndaşlıq borcudur. Şəhid və qazi ailələri göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə etmişlər.

**_Rəfiqə_**

## Şəhidlərin doğum günündə xatirələri anılıb

***İyul ayının 12-də Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının sədri Kamil Qurbanlı, təşkilatın əməkdaşı və Yuxarı Cürəli kənd ərazi partiya təşkilatının sədri Firdovsi Şərifov I Qarabağ müharibəsində Vətənimizin müdafiəsi uğrunda öz canından keçərək itkin düşmüş, rayonun Yuxarı Cürəli kəndindən olan şəhid Əliyev Təyyar İltifat oğlunun doğum günü ilə əlaqədar məzarını ziyarət edib və ruhuna dualar oxunub.***

Daha sonra II Qarabağ müharibəsində Vətənimizin müdafiəsi uğrunda öz canlarından keçən, rayonun Aşağı Cürəli kəndindən olan şəhid Mirzəyev Orxan Əli oğlunun və Çaylı kəndindən olan şəhid Allahverdiyev Elnur Kamil oğlunun doğum günləri münasibəti ilə ailələrini ziyarət ediblər. Ziyarət zamanı şəhidlərimizin şərəfli həyatı və döyüş yolu, torpağa, milli-mənəvi dəyərlərə bağlılığı, müqəddəs şəhidlik zirvəsinə ucalmalarından bəhs edilib və şəhid ailələrinin qayğıları ilə maraqlanılıb. Şəhidlərimizin valideyinləri onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildiriblər. Daha sonra kənd qəbirstanlıqlarında şəhidlərin məzarları ziyarət olunub və ruhlarına dualar oxunub. Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən şəhid Mirzəyev Orxan Əli oğlu ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə, şəhid Allahverdiyev Elnur Kamil oğlu ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "İgidliyə görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif ediliblər.

Allah rəhmət eləsin!

**_Rəfiqə_**





# ABŞ Ukraynaya hərbi yardımlarını azaldacaq?

***Hələ cari ilin may ayında ABŞ Senatı Ukraynaya 40 milyard dollarlıq nəhəng yardım paketini təsdiqləmişdi. Bu məbləğin böyük hissəsi Rusiya qoşunlarını ölkədən çıxarmağa çalışan Ukrayna ordusunu silahla təmin etmək üçün istifadəsinə hesablanıb. Lakin sirr deyil ki, ABŞ buna qədər də Ukraynaya hərbi yardımlarını göstərib və son vaxtlar həmin yardımların azalması müşahidə olunmaqdadır.***

## *Avropalılar amerikalılardan nə tələb edirlər?*





Məsələ ondadır ki, Pentaqon Ukraynaya müxtəlif çaplı silah-sursatlar göndərməklə yanaşı, bu ölkənin silahlı qüvvələrini kəşfiyyat avadanlıqları, habelə yaxınmənzilli raketlər, tank və uçan aparatlar əleyhinə sistemlər də təchiz edir. Lakin hələ bir neçə ay əvvəl ABŞ Ukrayna ordusuna uzaq mənzilli raketlər göndərmək barədə düşünürdü, lakin bu qərar sonradan geri alındı. Məsələ ondadır ki, amerikalı hərbi strateqlər ukraynalıların həmin raketləri Rusiyanın ərazisinə atacağından ehtiyat etdilər, habelə Ukrayna tərəfi də bu addıma getməyəcəyinə zəmanət vermədi. Nəticədə amerikalılara məxsus uzaq mənzilli raketlər Ukraynaya təhvil verilməmiş qaldı. Əbəs deyil ki, Ukrayna prezidenti Vladimir Zelenski bu haqda danışarkən, ABŞ-n həmin qərarına qarşı məzəmmət xarakterli çıxışı ilə yadda qaldı, amerikalıların onları "yarı yolda qoyacağından" ehtiyat etdiyini bildirdi.

### Avropanın hərbi-siyasi tərəfləri də yaxşı bilirlər ki, Rusiya Ukraynada gec də olsa uğur qazanarsa növbəti hədəf məhz onlar olacaqlar

Və ən maraqlısı budur ki, ABŞ-ın Avropa İttifaqı ilə elə də isti olmayan münasibətləri fonunda avropalılar da amerikalıları hədəfə aldılar, Ukraynaya hərbi yardımların sayının daha artırılması mühümlüyündən danışdılar. Artıq buradan belə bir nəticə də hasil etmək olar ki, bu ilin fevral ayında başlayan müharibənin başa çatdırılması yönündə yollar axtaran, yaxud buna cəhd edən ABŞ-a mane olan tərəf də məhz Avropa siyasi dairələridir. Bəlkə də belə yanaşma ciddi görünməyə bilər, amma proseslər də buna doğru inkişaf edir.

Çünki başqa yandan, Avropanın hərbi-siyasi tərəfləri də yaxşı bilirlər ki, Rusiya Ukraynada gec də olsa uğur qazanarsa növbəti hədəf məhz onlar olacaqlar. Buna misal olaraq Polşanı, Baltikyanı respublikaları göstərmək mümkündür. Xüsusilə, Litvanın Rusiyaya məxsus iqtisadi məqsədli yükləri öz ərazisindən buraxmaması, eləcə də Polşa ilə Ukrayna arasında sərhədlərin götürülməsi qərarının verilməsi Kremlin qıcıqlanmasına səbəb olmaqdadır.

Onu da qeyd edək ki, bir müddət əvvəl Ukrayna-Rusiya danışıqları təmin olunsa da, artıq bu mümkünlük də aradan qalxıb və burada da Avropa siyasi dairələrinin müəyyən müdaxilələrini hiss etməmək mümkün deyil. Düşündürücüdür ki, hazırkı dövrə qədər qəbul edilən sanksiyaların müqabilində Rusiya öz siyasi-hərbi ambisiyalarını davam etdirir, özü də kəskin israrlıq siyasəti ilə.

### Qısa zaman kəsiyində Rusiyanın iqtisadi zəmində geriləməsini gözləmək də doğru olmaz

Beləliklə, Rusiyaya qarşı tətbiq olunan iqtisadi sanksiyalar paketi uzun müddətə hesablanıb. Buna görə də çox qısa zaman kəsiyində Rusiyanın iqtisadi zəmində geriləməsini gözləmək də doğru olmaz. Çünki Rusiyanın güclü iqtisadi ehtiyatları mövcuddur. Məhz həmin ehtiyatların müqabilində müharibə uzanır. Regional maraqları olan dövlətlər də öz maraqları təmin olunmayana qədər bu prosesdən çəkilmirlər. Ancaq sonuncu zərbə hələ vurulmayıb - bu zərbənin adı 6-cı sanksiyadır və həmin sanksiya tam mənada işə düşsə Rusiyanın iqtisadi cinahları zəifləyə bilər.

Məhz bu amildən çıxış edən Avropa siyasi dairələri ilk növbədə öz təhlükəsizliklərini təmin etmələri məqsədləri ilə müharibənin davamında maraqlı olduqlarını gizlətmirlər. Amma onlardan fərqli olaraq ABŞ-ın hərbi-siyasi dairələri artıq savaşın yekun həddə çatmasını istəyirlər, belə ki, bu gün Ukraynaya xərclənən milyardlarla dollarlar sabah-birigün ABŞ-ın özü üçün ciddi tələbata çevrilə bilər.

### Avropa öz hayındadır və müharibənin davam etməsində maraqlıdır, amma ABŞ...

Əbəs deyil ki, Rusiya-Ukrayna qarşıdurmasında ABŞ-Aİ qarşıdurması da get-gedə artmağa başlayıb və məqsədlər də üst-üstə düşmür. Ən adi misal da gətirmək olar - müharibə artıq yarım ilə yaxındır davam edir və bu dövrdə Ukraynanı ABŞ rəsmilərindən cəmi bir neçə nəfər ziyarət edib, amma Avropa ölkələrinin demək olar ki, bir çox liderləri dəfələrlə Kiyevə gedərək öz dəstək mesajlarını göstəriblər. Belə olan halda, kimin hansı və necə münasibət göstərməsi də göz önündədir. Bəli, Avropa öz hayındadır və müharibənin davam etməsində maraqlıdır, amma ABŞ artıq əks fikirlərə daha çox istiqamət alır və bu gün-sabah amerikalıların anidən silah yardımlarını dayandırmaları, bunun üçün konqresdə veto qərarının verilməsi ehtimalları gerçəkləşə bilər. Hər halda proseslər də göstərir ki, 2022-ci ilin sonlarında müharibə başa çatmağına çatacaq, amma nə Rusiya, nə də Ukrayna istədiklərini əldə edə bilməyəcəklər. Daha dəqiq desək, "LDNR"in hansısa bir neçə ölkələr tərəfindən tanınması da rusların maraqlarını, siyasi qalibiyyətlərini təmin edə bilməyəcək, hətta bu gün Xersonda, Xarkovda və s. zəbt olunmuş Ukrayna torpaqlarında mənzillənən, bu ərazilərdə Rusiya bayrağı qaldıran hərbçilərin də müqəddəratları qeyri-müəyyən olaraq qalır. Artıq tam olaraq sübuta yetirilib ki, siyasi maraqların kəsişmə nöqtəsinə çevrilən Ukraynada qaliblər indidən məlumdur - Avropalılar və amerikalılar...

***Rövşən RƏSULOV***

# Nikolun "qırdığı rekordlar"...



Əgər ötən ilin əvvəlində məşğul əhali arasında 800 nəfərin maaşı ödənilmirdisə, bu ilin əvvəlində bu rəqəm 2900 nəfərə qədər yüksəlib. Əslində, bunu təkcə ermənilərə şamil etmək, bəlkə də haqsızlıq olardı. Çünki bu gün işsizlik təkcə Ermənistanda deyil, dünyanın hətta ən inkişaf etmiş ölkələrində belə müşahidə edilməkdədir. Amma həmən ölkələrdə, hazırkı Ermənistan rəhbərliyindən fərqli olaraq, hər dəfə ölkə əhalisinə yeni iş yerlərinin açılması ilə bağlı yalan xəbərlər vermirlər.

Bu gün ermənilərin dediyinə görə, hazırda hökumət nümayəndələri, xüsusən də Paşinyan, hər dəfə iş yerləri ilə bağlı yeni rekordlar barədə danışanda, nədənsə, bu eyni iş yerlərinin nəinki açılmağa, hətta bağlanmağa meylli olduğunu aydınlaşdırmağı unudur.

Məsələn, Ermənistan Statistika Komitəsinin məlumatına görə, bu ilin birinci rübündə Ermənistanda işləyənlərin sayı ötən ilin sonu ilə müqayisədə xeyli azalıb. Belə ki, 2021-ci ilin dördüncü rübündə ölkədə işləyənlərin ümumi sayı 1 milyon 93 min idisə, 2022-ci ilin birinci rübündə bu rəqəm 1 milyon 70 min nəfər olub. Bu ərəfədə rəsmi qeydiyyatda olan işsizlərin sayı da 5 minə yaxın artıb.

Yeri gəlmişkən, Statistika Komitəsi bu ərəfədə bütün bunlarla yanaşı, ölkədə ödənişsiz əmək təcrübəsi prosesinə cəlb olunanların sayının da artdığını etiraf edir.

Beləliklə, əgər ötən ilin əvvəlində məşğul əhali arasında 800 nəfərin maaşı ödənilmirdisə, bu ilin əvvəlində bu rəqəm 2900 nəfərə qədər yüksəlib.

Təbii ki, burada yeni iş yerlərinin açılmasından ümumiyyətlə danışmağa ehtiyac yoxdur. İnsanlar sadəcə, deyək ki, öz bağlarında özləri üçün tərəvəz və ya meyvə yetişdirirlər. Ermənilər bildirirlər ki, il ərzində belə vətəndaşların sayı kəskin şəkildə artıb ki, bu da bəlkə əhalinin gəlirlərinin aşağı düşməsi baxımından nəzərə alınmalıdır.

...Amma hökumət öz ampulasındadır. Elə bu yaxınlarda Nikol Paşinyan növbəti dəfə bu mövzu üzərində dayanaraq, bu ilin may ayında ötən ilin may ayı ilə müqayisədə on mindən çox yeni iş yerlərinin açıldığını dedi. Təbii ki, Nikol, bəlkə də, doğru deyir. On min də olmasa, hər halda bəzi yerlərdə az da olsa işə götürülənlər olub, amma həmən işə götürülənlərdən artığını da ixtisara salıblar, yəni bəzi iş yerləri qapadılıb. Özü də açılandan xeyli çox.

Deyim ki, mən bunu havadan demirəm. Rəsmi dövlət qurumu, Ermənistan Statistika Komitəsinin təqdim etdiyi rəqəmlərə əsaslanıram. Buyurun, diqqət yetirin "...bütün ötən il ərzində iş yerlərinin ixtisar edilməsinin ümumi sayı 49500 olub". Bunu rəsmi dövlət qurumu bəyan edir.

Ermənilər bir də onu deyirlər ki, Nikol, adətən danışanda yeni açılan iş yerlərinin "qırdığı rekorddan" danışır, o biri rekord, yəni ixtisarlar artıq Nikolluq deyil.

...Gərək ki, həmən dövrü yaşayanların yadında olar: o vaxt Paşinyan hakimiyyətə gələndə ölkədə 125 min yeni iş yeri açacağına söz vermişdi. Amma nə qədər iş yeri qapadacağını deməmişdi. Yenə də mən Sizə Ermənistan Statistika Komitəsindən əldə olunan faktlara diqqət yetirməyinizi istəyəcəm. Beləliklə, 2018-ci ildə Ermənistanda məşğul əhalinin sayı 1 milyon 248 min nəfər, bu ilin birinci rübündə isə 1 milyon 70 min nəfər olub. Yəni, 4 il ərzində işlə təmin olunanların sayı demək olar ki, 178 min nəfər azalıb.

...Onu necə deyirlər...yaxşı, yumurta...cəhənnəm, bəs fala hanı?

***Ağasəf Babayev***

**Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər İnstitutunun Postsovet Araşdırmaları Mərkəzinin aparıcı elmi işçisi, Moskva Dövlət Universitetinin dünya siyasəti fakültəsinin dosenti, tarix elmləri namizədi Dmitri Malışev "Caliber" analitik mərkəzinə müsahibəsində regionumuzda gedən proseslər haqda maraqlı fikirlər bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.**



*Dmitri Malışev: Hesab edirəm ki, Qarabağda müharibə mümkündür, çünki bu münaqişə 1990-cı illərdən bəri daim kəskinləşib*

# "Cənubi Qafqazda vəziyyətin gərginləşməsi hər an mümkündür"

***- Dmitri Valeryeviç, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması imkanlarını necə qiymətləndirirsiniz, yaxın gələcəkdə hansısa irəliləyiş gözləmək lazımdırmı?***

- Bu günə qədər Ermənistanla Azərbaycan arasında münasibətləri tənzimləyən əsas sənəd Rusiya Federasiyasının vasitəçiliyi ilə iki ölkə tərəfindən imzalanmış 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanatdır. Amma regionda vəziyyət tam normallaşmayıb və çox güman ki, yaxın gələcəkdə Ermənistan-Azərbaycan münasibətlərində müəyyən status-kvo saxlanılacaq.

Üstəlik, situasiyasının müəyyən qədər ağırlaşması mümkündür. Amma həm Azərbaycanla Ermənistan arasında, həm də Ermənistanla Azərbaycanın əsas müttəfiqi olan Türkiyə Respublikası arasında tarixən çətin olan münasibətləri nəzərə alsaq, Azərbaycanla Ermənistan arasında qarşıdurmanın ciddi şəkildə kəskinləşməsi, eləcə də iki ölkə arasında yaxınlaşma olması ehtimalı azdır. Ermənistanla Azərbaycan arasında hələ də sülh müqaviləsinin imzalanmamasını, iki dövlət arasında sərhədin hələ də bağlı qaldığını nəzərə almamaq olmaz.

***- Yəni, tərəflər arasında sülh sazişinin imzalanması ehtimalı azdır?***

- Belə bir razılaşmanın olması ehtimalı azdır, baxmayaraq ki, bunu tamamilə istisna etmək olmaz. Belə bir müqavilənin bağlanmasına mane olan bir sıra amillər var. Birincisi, iki xalq arasında tarixən çətin münasibətlər.

İkincisi, Türkiyə bu respublika ilə əlaqələr qurmasa, Azərbaycanın Ermənistanla sülh müqaviləsi imzalaması çətin ki mümkün olsun. Və burada vəziyyət daha da çıxılmazdır. Türkiyə, bildiyiniz kimi, ermənilərin iddia etdiyi 1915-ci il "erməni soyqırımı"nı rəsmən tanımaqdan imtina edir və bunsuz İrəvan Ankara ilə diplomatik münasibətlərin qurulması ilə bağlı heç bir müqavilə bağlamayacaq.

1994-cü ildə Qarabağ münaqişəsinin həlli üçün yaradılmış ATƏT-in Minsk Qrupunun praktiki olaraq fəaliyyətini dayandırdığı bir şəraitdə, prinsipcə, Azərbaycan və Ermənistan arasında sülh sazişinin bağlanmasının mümkünlüyündən danışmaq ümumiyyətlə çətindir. Baxmayaraq ki, iyunun ortalarında Qətərin "Əl-Cəzirə" telekanalına müsahibəsində Ermənistanın baş naziri Nikol Paşinyan delimitasiyanın, yəni Ermənistanla Azərbaycan arasında qanuni sərhəd rejiminin yaradılmasının birbaşa Qarabağ problemi ilə bağlı olmadığını bildirib.

***- Ermənistandakı daxili siyasi prosesləri, müxalifət dairələrinin və keçmiş Qarabağ klanı nümayəndələrinin etirazlarını, revanşist əhval-ruhiyyəsini necə qiymətləndirirsiniz? Qarabağda yeni müharibə ehtimalı varmı, Ermənistanda təhlükə nədir?***

- Ermənistandakı etirazlar həm ağır daxili siyasi vəziyyətlə, həm də ölkə üçün ağrılı Qarabağ problemi ilə bağlıdır. Nəzərinizə çatdırım ki, bu problemin həlli həmişə respublikada daxili siyasi böhranlarla müşayiət olunub. Yada salmaq kifayətdir ki, birinci prezident Levon Ter-Petrosyanın vaxtından əvvəl istefası məhz Qarabağ probleminin kompromis həlli cəhdi ilə bağlı idi.

Ermənistanın ikinci prezidenti isə Robert Köçəryan olub. Nikol Paşinyanın bağlı olmadığı Qarabağ klanı Ermənistanda həqiqətən də ciddi mövqelərə malikdir. İndiki etirazlara səbəb Paşinyanın bu ilin aprelində Milli Assambleyada (parlament) çıxışı olub və o, beynəlxalq ictimaiyyətin Ermənistandan Qarabağ məsələsində "təzyiqi aşağı salmağı" tələb etdiyini bəyan edib.



Eyni zamanda, Brüsseldə Avropa İttifaqının himayəsi altında Ermənistan və Azərbaycan arasında sülh sazişinin bağlanması ilə bağlı danışıqlara başlanılıb, lakin bu günə qədər bu danışıqlar praktiki olaraq nəticəsiz qalıb. Beləliklə, hesab edirəm ki, Qarabağda müharibə mümkündür, çünki bu münaqişə 1990-cı illərdən bəri daim kəskinləşib. Hələlik Paşinyan respublikada güc strukturlarına nəzarət etməyi bacarır, amma bunun nə qədər davam edəcəyi böyük sualdır.

***- Bəs Bakı ilə İrəvan arasında danışıqlarda Avropanın vasitəçilik səylərini necə qiymətləndirirsiniz?***

- Avropa İttifaqı Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanması məsələlərini həll etməyə cəhd etməkdə davam edir (hər halda belə bir görüntü yaradır). Və burada o, açıq-aşkar təşəbbüsü ATƏT-in əlindən almağa çalışır, bir halda ki, onun himayəsində yaradılmış Minsk Qrupu praktiki olaraq fəaliyyətini dayandırıb. Baxmayaraq ki, bu struktur əvvəlcədən səmərəsiz idi. Xüsusən də onun fəaliyyəti Azərbaycan tərəfindən daim tənqidlərə səbəb olub.

Nəzərinizə çatdırım ki, orada üç həmsədr var: Rusiya, ABŞ və Fransa, daha dəqiq desək, bu ölkələrdə ən böyük və nüfuzlu erməni diasporları var. Azərbaycan isə dəfələrlə Minsk Qrupunu ermənipərəst mövqe tutmaqda ittiham edib. 2022-ci il iyulun əvvəlində Aİ Şurasının (bu strukturun aparıcı orqanı) rəhbəri Çarlz Mişel Azərbaycan prezidenti İlham Əliyevlə telefon danışığı aparıb, burada Azərbaycan və Ermənistan arasında sülh sazişinin bağlanması məsələləri müzakirə olunub. Amma hələlik bu sahədə real nailiyyətlər yoxdur. Digər tərəfdən, bu missiyanı ATƏT yerinə yetirə bilmədisə, Aİ nə üçün onu yerinə yetirə bilsin?

***- Cənubi Qafqaz regionunda gələcək prosesləri necə təsəvvür edirsiniz? Ukraynadakı müharibə oradakı vəziyyətə mənfi təsir göstərə bilərmi?***

- Cənubi Qafqaz regionunda vəziyyətin gərginləşməsi onun güclü münaqişə potensialını nəzərə alsaq, hər an mümkündür. Lakin ümid var ki, burada status-kvo qorunub saxlanılacaq, istənilən halda hərbi əməliyyatlar olmayacaq. Ukraynada mövcud vəziyyət, o cümlədən Rusiya Federasiyası tərəfindən xüsusi hərbi əməliyyat (SVO) keçirməsi postsovet məkanının bütün regionlarına, o cümlədən Cənubi Qafqaza mənfi təsir göstərə bilər.

Xatırladaq ki, Ermənistan Rusiyanın müttəfiqidir (KTMT və Aİİ üzvüdür), Gürcüstan ardıcıl olaraq anti-Rusiya mövqeyindədir (2009-cu ildə hətta MDB-dən çıxdı), Azərbaycanın Rusiya ilə kifayət qədər yaxşı münasibətləri var. Baxmayaraq ki, Azərbaycan Ukraynadakı əməliyyata açıq dəstək ifadə etməmişdir. Buna baxmayaraq, kənardan müdaxilə edilmədiyi təqdirdə Ukrayna müharibəsinin Cənubi Qafqazdakı vəziyyəti sarsıtması çətin ki mümkün olsun. Amma istənilən halda Rusiya həm Ermənistanı, həm də Azərbaycanı özünün strateji müttəfiqi hesab edir.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.**

# Meyvə və giləmeyvələri qışa saxlamağın yolu



*Yay dadlı meyvələrlə zəngin fəsildir. Meyvələrin xarab olmağını gözləməkdənsə, onlardan mürəbbə bişirmək və ya qış fəsli üçün tədarük etmək, moruq, böyürtkən, gilas, çiyələk kimi meyvələrin dadını qışda da almaq olar. Onları qışa qədər quru, təravətli və təzə saxlamağın da bir neçə yolu var.*

İlk növbədə meyvələr təzə, lakin həddən artıq yetişmiş olmamalıdır. Moruğu dondurmaq üçün onu yumaq olmaz. Meyvələr yaxşı qurumadığı üçün içi buz bağlaya bilər. Əriyi və gavalını dondurmazdan əvvəl iki yerə bölmək daha yaxşı olar. Bir mühüm məqamı - temperatur fərqini də yadda saxlamaq lazımdır. Ev istiliyində olan meyvəni birdən-birə dondurucuya qoyanda onun keyfiyyəti itir və əvvəlki təzəliyi qalmır. Ona görə də onu dondurucuya qoymazdan əvvəl ən azı bir saat soyuducunun yuxarı hissəsində saxlamaq lazımdır.

AZƏRTAC xəbər verir ki, qida mühəndisi Məhsəti Hüseynovanın dediyinə görə, bir sıra qidaları dondurmaq düzgün deyil: "Giləmeyvələrin dondurulması onun tərkibini o qədər də dəyişmir. Tərəvəzlərin dondurulmasına isə yol vermək düzgün deyil, çünki onların tərkibinin 80 faizi sudan ibarətdir. Düzgün şəkildə dondurulub saxlanılmadıqda onların tərkibində olan kimyəvi maddələr qışda faydadan çox zəhərlənmə hallarına səbəb ola bilər. C vitamini ilə zəngin olan bir çox meyvələr dondurulanda onların tərkibi dəyişir və həmin vitaminlər tamamilə azalır".

Diqqət yetirilməli digər məqam isə onların saxlanıldığı qabdır. Meyvələri çox da hündür olmayan nazik plastik qablarda saxlamaq daha məsləhətlidir. Ən əsas və nəzərə alınmalı məsələ isə meyvələrin həcmidir. Bir dəfəyə böyük həcmli meyvə qablaşdırmaq düzgün deyil.

Qida mühəndisinin dediyinə görə, onları porsiyalara bölüb kiçik ölçülərdə dondurmaq daha məqsədəuyğundur: "Bəzən elə olur ki, dondurulan meyvələrin bir hissəsi istifadə edildikdən sonra qalan hissəsi yenidən dondurulmağa qoyulur və bu, ən təhlükəli hallardan biri hesab olunur. Əksər hallarda belə meyvələri yedikdə maddələr mübadiləsinin pozulması və yaxud ishal kimi hallara səbəb olur və bunun həmin meyvə-tərəvəzdən qaynaqlandığını bilmirlər. Onu da qeyd edək ki, bir çox meyvə-tərəvəzi yumadan dondurmaq daha məsləhətlidir, çünki qışda onun donu açılıb yuyulduqda daha faydalı olur".

# "Qarabağ" UEFA reytinqində xalımızı artırdı



***Futbol üzrə UEFA Çempionlar Liqasında 1-ci təsnifat mərhələsinin ötən gecə keçirilən cavab oyunlarından sonra UEFA-nın reytinq siyahısında dəyişikliklər olub. Belə ki, "Qarabağ" Bakıda Polşa "Lex"ini məğlub etməklə (5:1) ölkəmizin aktivinə 0,250 xal yazdırıb.***

Azərbaycan son 5 mövsüm üzrə xal sayını 12,875-ə çatdırsa da, 29-cu pillədə qalıb. Reytinq siyahısında dəyişikliklər aşağı pillələrdə baş verib. Lüksemburq 8,500 xalla 35-ci pilləyə yüksəlib. Hərəyə 8,375 xalı olan Finlandiya ilə Bosniya və Herseqovina 36-37-ci yerləri bölüşür. Xalını 8,125-ə çatdıran Litva 39-cu mövqeyə irəliləyib. Cəbəllütariq (5.541) 48-ci, İslandiya (5.416) 49-cu pilləyə irəliləyibsə, Uels (5.333) 50-ci mövqeyə düşüb.

# XƏBƏRDARLIQ: bu gün 42 dərəcə isti olacaq!

***Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraiti əsasən yağmursuz keçəcək, şimal-qərb küləyi gündüz mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq. Milli Hidrometeorologiya Xidmətindən SİA -ya verilən məlumata görə, havanın temperaturu gecə 22-26° isti, gündüz 33-38° isti olacaq.***



Bakıda gecə 23-25° isti, gündüz 35-37° isti olacaq. Atmosfer təzyiqi 757 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət 55-60 % olacaq.

Azərbaycanın rayonlarında hava yağmursuz keçəcək, şərq küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 22-27° isti, gündüz 35-40°, bəzi yerlərdə 42° isti, dağlarda gecə 8-13° isti, gündüz 25-30° isti olacaq.

# Tanışını bıçaqla öldürdü, həbs olundu



İyulun 11-i saat 23 radələrində Tovuz rayon sakini 1988-ci il təvəllüdlü Nizami Vəliyevin öldürülməsi barədə rayon prokurorluğuna məlumat daxil olub. Tovuz Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, aparılmış araşdırmalarla zərərçəkmişin tanışı, 1983-cü il təvəllüdlü Vüsal Əhmədovun şəxsi münasibətlər zəminində aralarında yaranmış münaqişə zamanı bıçaqla xəsarətlər yetirərək Nizami Vəliyevi qəsdən öldürməsinə əsaslı şübhələr müəyyənləşdirilib.

Faktla bağlı Tovuz Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. Vüsal Əhmədov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub. Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3220**